# EVDƏ QAL, SAĞLAM QAL!

**Əhalinin sağlamlığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirilir**



Bax 4

**"National Herald Tribune": "Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ regionundakı seçkini rədd edir"**



Bax 3



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 057 (6022) 9 aprel 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Azərbaycan vətəndaşları koronavirusla mübarizədə Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərdən razılıqlarını bildirirlər



Bax 2

# "Bu mübarizədə birlik, həmrəylik qələbə çalacaq!"

## "15 mindən çox Azərbaycan vətəndaşının ölkəyə gətirilməsi təmin olunub"



*"Xaricdə olan 15 mindən çox Azərbaycan vətəndaşının ölkəyə gətirilməsi təmin olunub. Gətirilənlər xüsusi karantin zonalarında yerləşdirilir".*

Bax 3

## Operativ Qərargah: "Daha sərt tədbirlər üçün müraciət edəcəyik"



"Təəssüf ki, karantin rejimini pozan vətəndaşlarımız çoxdur, bu da riskləri artırır". SİA xəbər verir ki, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib.

Bax 3

## Erməni saytı Nikol Paşinyanı və hökumətini virus adlandırdı



Bax 7

"Koronavirusla bağlı məsələ Nikol Paşinyanın rəhbərlik etdiyi hökumətin qeyri-ciddiliyini və ictimai təhlükəyə yol açdığını növbəti dəfə aşkar etdi". Bu barədə Ermənistanın "7or.am" xəbər saytının təhlil bölməsində yazılıb. Ermənistan hakimiyyətinin bir-birini təkzib edən bəyanat və rəylərini ifşa edən yazıda xronoloji sıralama ilə bir sıra məqamlara toxunulub:

## Şok sözlər: "Messi getsə, dünyanın sonu olmayacaq"



*Qol.az xəbər verir ki, bu sözləri İspaniya La Liqasının prezidenti Xavyer Tebas "Barselona"nın kapitanı Lionel Messinin "İnter"ə keçəcəyi barədə iddialara münasibət bildirərkən deyib.*

Bax 16

## Azərbaycan "COVID-19" ilə mübarizədə sistemli tədbirlər reallaşır

Bax 5



Bu gün bütün dünya bəşəriyyəti bürümüş qorxunc virusla - koronavirus pandemiyası ilə üz-üzədir. Çox çətin və gərgin zaman yaşayan dünya gözə görünməyən düşmən kimi adlandırılan bəla ilə mübarizədədir. Böyük elmi nailiyyətlərin əldə olunduğu iyirmi birinci yüzillikdə koronavirus pandemiyasının qarşısını almaq müşkülə çevrilib...

## "10 ildir ki, Ermənistan İsrailə yalvarır"



*"İsrailin Ermənistanla əlaqələrinin artması və bu əlaqələrin İranın əleyhinə olması ilə bağlı deyilənlər düzdür. Lakin, İran bunu belə qəbul etməyəcək"...*

## İkiqat "Grammy" mükafatçısı koronavirusdan öldü



Amerikalı müğənni Con Prayn koronavirusdan dünyasını dəyişib. Bu barədə "Reuters" xəbər yayıb. Martın 17-də 73 yaşlı Prayn və xanımı Fionanın koronavirusa yoluxduqları məlum olub. Martın 26-da Prayn-Neşvill şəhərində xəstəxanaya yerləşdirilib. Müğənni infeksiya nəticəsində yaranan ağırlaşmalara görə ölüb.

Bax 16

**"Beşinci kalon" koronavirusdan bəhrələnə bilmir**



Bax 14

**"İran bir növ Ermənistan üçün "nəfəslik" rolunu oynayıb"**



Bax 10

**Fransa portalı Azərbaycanın iqtisadi inkişafından yazır**





Bax 9

# "Bu mübarizədə birlik, həmrəylik qələbə çalacaq!"

## *Azərbaycan vətəndaşları koronavirusla mübarizədə Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərdən razılıqlarını bildirirlər*



***Bütün dünyanı cənginə almış koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar, əhalinin sağlamlığının qorunması üçün gördüyü işlər Azərbaycan vətəndaşları tərəfindən böyük rəğbətlə qarşılanır. Vətəndaşlarımız bəşəriyyəti bürüyən bu bəladan Azərbaycan xalqının xilas olması üçün dövlətimizin başçısının göstərdiyi diqqət və qayğıdan razılıqlarını ona yazdıqları minnətdarlıq məktublarında ifadə edirlər.***

AZƏRTAC Prezidentin saytına istinadla dövlətimizin başçısına ünvanlanan bir sıra məktubları təqdim edir.

Lerik rayon sakini, Qarabağ müharibəsi qazisi Üzeyir Məmmədov Azərbaycan xalqına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına təşəkkür edərək yazır: "Möhtərəm cənab Prezident, bu gün bu çətin zamanda Sizin xalqımıza dəstək olmağınız bəşəriyyəti bürüyən bu bəladan xalqımızın xilas olması üçün göstərdiyiniz diqqət və qayğı bizi çox sevindirir. Xalqa bu virusdan qorunmaqla bağlı etdiyiniz müraciətlər, Sizin həmişə öz xalqınızla birlikdə olmağınız bizi daha da ruhlandırır. Sevinirik ki, rəhbərimiz öz xalqına bu qədər diqqət ayırır. İnanırıq ki, bəşəriyyəti bürüyən bu bəladan birlikdə uğurla çıxacağıq. Bu gün rayonumuzda da küçələr, fərdi evlər mütəmadi olaraq dezinfeksiya edilir. Aztəminatlı ailələrə tez-tez baş çəkilir, ehtiyacı olanlara ərzaq yardımı edilir. Xəstəxanalar əhaliyə fasiləsiz xidmət göstərir.

Cənab Prezident, bütün bu işlərə görə Sizə təşəkkür edirik. Biz, Qarabağ qaziləri hər zaman Sizin ətrafınızda sıx birləşmişik və bütün işlərinizdə Sizə yaxından kömək etməyə hazırıq".

Xocavənd rayonunun Qaradağlı kəndinin sakini Əbülfət Əliyev son vaxtlar dünyada geniş vüsət almış yeni koronavirus pandemiyasının Azərbaycanda qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin gördüyü qabaqlayıcı tədbirlərin Xocavənd ictimaiyyəti tərəfindən də son dərəcə müsbət qarşılandığını bildirir. O yazır: "Möhtərəm cənab Prezident, insanların bu öldürücü virusla üz-üzə qaldığı bir vaxtda Siz öz vətəndaşlarınızın yanında olduğunuzu bir daha göstərdiniz. Sizin təşəbbüsünüzlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı və Siz bir illik əməkhaqqınızı həmin fonda köçürdünüz. Həmçinin Siz xəstəliyin geniş yayılmaması üçün xalqa müraciət edərək, bu çətin günlərdə hamını bir olmağa, karantin qaydalarına əməl etməyə çağırdınız. Sizin hər kəsə göstərdiyiniz diqqət və qayğı biz vətəndaşları ürəkləndirir və Sizin hər bir vətəndaşın Prezidenti olduğunuzu bir daha sübut edir.

Cənab Prezident, biz azərbaycanlılar birlikdə çox sınaqlardan çıxmışıq. İnanırıq ki, bu çətinliyi də birlikdə dəf edəcək, tezliklə yenidən firavan həyata qovuşacağıq. Bu çətin günlərdə xalqa dəstək olduğunuza görə xocavəndlilər adından Sizə minnətdarlığımızı bildiririk".

Müstəqil Azərbaycan Respublikasının gündən-günə çiçəklənməsi, insanların rifah halının yüksəldilməsi istiqamətində dövlətimizin başçısının atdığı addımların təqdirəlayiq olduğunu vurğulayan Gəncə şəhər sakini İlkin Cavadov yazır: "Cənab Prezident, dünyada kütləvi hal alan koronavirus pandemiyasının ölkəmizə yayılmasının qarşısının alınması məqsədilə həyata keçirdiyiniz qabaqlayıcı tədbirlər, əhalinin sağlamlığının qorunması üçün gördüyünüz işlər biz gəncəlilər tərəfindən də yüksək qiymətləndirilir. Bu çətin günlərdə dövlətimiz, xalqımız üçün göstərdiyiniz fədakarlıq, yorulmaz səyləriniz bir gənc olaraq məni çox qürurlandırır və Azərbaycan boyda böyük bir ailənin qayğısını çəkdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm".

Ağcabədi rayon sakini Əlizadə Nəcəfov isə Azərbaycan Prezidentinə minnətdarlığını aşağıdakı fikirlərlə bildirir:

"Çox hörmətli Prezidentimiz, son günlər dünyada geniş vüsət almış yeni koronavirus pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması istiqamətində gördüyünüz qabaqlayıcı tədbirlər Ağcabədi rayonunun ictimaiyyəti tərəfindən də son dərəcə müsbət qarşılanır. Ağsaqqallarımız, ziyalılarımız və müvafiq yerli icra strukturları Sizin rəhbərliyinizlə bu istiqamətdə həyata keçirilən təxirəsalınmaz tədbirləri, xüsusilə də insanların sağlamlığının qorunmasının əsas məqsəd kimi qarşıya qoyulmasını sakinlərə çatdırırlar. Zaman bir daha göstərdi ki, Prezidentimiz həmişə olduğu kimi, bu çətin günlərdə də xalqımızın yanındadır.

Cənab Prezident, Ağcabədi rayonunun əhalisi də Sizin təşəbbüsünüzlə yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna vəsait köçürür, "Evdə qal!" və digər çağırışlarınıza ciddi əməl edirlər.

Möhtərəm cənab Prezident, bu ağır günlərdə biz ağcabədililər Sizin çağırışlarınıza qoşulur, əmin olduğumuzu bildiririk ki, inşallah, xalqımız Zati-alinizin müdrik rəhbərliyi ilə bu sınaqdan da zəfərlə çıxacaq. İnanırıq ki, tezliklə ölkəmizdə həyat öz əvvəlki axarı ilə davam edəcəkdir".

Prezidentə minnətdarlıq edən Lerik rayonunun Çayrud kəndinin sakini Seyran İsmayılov dövlətimizin başçısının gördüyü qabaqlayıcı tədbirlər nəticəsində pandemiyanın ölkəmizə təsirinin minimum həddə olduğunu yazır: "Bu gün bəşəriyyəti koronovirus adlı bir fəlakət cənginə alıb. Hər gün minlərlə can almaqda davam edən bu pandemiya, təəssüf ki, doğma Azərbaycanımızdan da yan keçmədi. Amma Sizin gördüyünüz qabaqcıl tədbirlər nəticəsində pandemiyanın ölkəmizə təsiri minimum həddədir. Ardıcıl verdiyiniz sərəncam və göstərişlər Azərbaycan vətəndaşının təhlükəsizliyinə və sağlamlığının qorunmasına hesablanmış addımlardır. Bununla bir daha təsdiq etdiniz ki, Siz hər bir azərbaycanlının Prezidenti olaraq bizim yanımızdasınız. Xalqımız bir daha əmin oldu ki, dövlətimiz etibarlı əllərdədir.

Cənab Prezident, əmin ola bilərsiniz ki, biz də Sizin ətrafınızda sıx birləşərək verdiyiniz sərəncam və tapşırıqları yerinə yetirməyə həmişə hazırıq. İnanırıq ki, məhz Sizin uzaqgörən siyasətiniz nəticəsində hər sahədə qələbə qazandığımız kimi, çox qısa zamanda bu pandemiyaya da qalib gələcəyik, ölkəmiz bu fəlakətdən minimum itkilərlə çıxacaq.

Cənab Prezident, Sizə yaşadığım ərazinin əhalisi adından Azərbaycan vətəndaşının sağlamlığı naminə gördüyünüz qabaqlayıcı tədbirlərə görə minnətdarlığımı bildirirəm. Sizə Allahdan möhkəm cansağlığı, işlərinizdə bol-bol uğurlar arzulayıram".

Bakı şəhəri Qaradağ rayonunun sakini Zaur Allahverdiyev Azərbaycan dövlətinin dünyada geniş şəkildə yayılan koronovirus pandemiyası ilə mübarizədə qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində ilkin mərhələdə uğurlar əldə etdiyini və bu gün də digər ölkələrlə müqayisədə Azərbaycanda vəziyyətin daha əlverişli olduğunu qeyd edir. "Buna baxmayaraq, Azərbaycan bütün lazımi tədbirləri görməkdə davam edir. Xaricdən gələn Azərbaycan vətəndaşları karantinə yerləşdirilib. Karantin üçün də ən əlverişli şərait yaradılıb. Ölkəmizin müxtəlif yerlərində olan bir çox xəstəxanalara koronovirus xəstələri yerləşdirilib. Bunlar dövlət tərəfindən ölkə vətəndaşlarının sağlamlığı üçün atılmış mühüm addımlardır.

Möhtərəm Prezident, Sizin tərəfinizdən operativ olaraq görülən qabaqlayıcı tədbirlər, ölkəmizdə inşa edilən ən müasir "Yeni klinika", əhalinin sağlamlığının qorunması məqsədilə gördüyümüz işlər Azərbaycan gəncləri tərəfindən bəyənilir və təqdir edilir. İnanıram ki, Sizin gördüyünüz tədbirlər nəticəsində xalqımız COVID-19 bəlasından qurtulacaq. Bu mübarizədə birlik, həmrəylik qələbə çalacaq" - deyə o, fikirlərini tamamlayır.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi haqqında 23 iyul 2015-ci il tarixli fərmanına dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi haqqında Əsasnaməsində dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Samux rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi və aqrar sahənin maliyyələşməsinin stimullaşdırılması ilə bağlı bir sıra məsələlər barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 avqust tarixli 758 nömrəli və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2009-cu il 3 aprel tarixli 74 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# “15 mindən çox Azərbaycan vətəndaşının ölkəyə gətirilməsi təmin olunub”

*“Xaricdə olan 15 mindən çox Azərbaycan vətəndaşının ölkəyə gətirilməsi təmin olunub. Gətirilənlər xüsusi karantin zonalarında yerləşdirilir”.*



APA-nın məlumatına görə, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

H. Hacıyev bildirib ki, 20 aprelə qədər Azərbaycana hava yolları və quru yollarla giriş-çıxış dayandırılıb: “Bu, yükdaşımalara şamil edilmir. Bu, daxili yoluxma hallarına diqqəti yönəltmək üçündür. Həmçinin karantin məqsədləri üçün ayrılmış karantin yerləri ilə bağlı məsələni tənzimləmək üçündür. Xaricdə olan vətəndaşlarımıza da anlayışları üçün təşəkkür edirik. Sərhədlər bağlansa da, müstəsna hallar olur. Son iki gündə Rusiyadan Azərbaycana cənazələrin gətirilməsi halları olub. O insanların yaxınları müraciət edib, humanizm prinsipi əsasında bu məsələ nəzərə alındı”.

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, xaricdəki diplomatik nümayəndəliklərimiz vətəndaşlarımızla təmasdadırlar: “Zəruri ehtiyacı olan vətəndaşlara diplomatik nümayəndəliklər, tələbələrə münasibətdə isə Təhsil Nazirliyi tərəfindən dəstək verilir”.

# Azərbaycan Ordusunda snayperlərin hazırlığı yoxlanılır



dişlərinin təkmilləşdirilməsi məqsədilə snayperlərin hazırlığı yoxlanılır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, snayper qrupları böyük məsafələrə yürüş, əlverişli mövqelərin tutulması, mövqelərin maskalanması, ərazi kəşfinin aparılması, yanlış snayper mövqelərinin qurulması, müxtəlif məsafələrdəki





Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyətin döyüş vərhədəflərə fərdi və qrup halında atışlar icra edirlər.

# İran səfiri Azərbaycana təşəkkür edib



İranın Bakıdakı səfiri Cavad Cahangirzadə Azərbaycanın iranlılarla həmrəylik göstərməsini alqışlayıb. SİA-nın məlumatına görə, bu barədə səfiriyin “Twitter” səhifəsində qeyd olunub. Bildirilib ki, Cavad Cahangirzadə koronavirusla mübarizədə Azərbaycan hökumətinin iranlılarla həmrəyliyini göstərən tədbirlərini yüksək qiymətləndirir. Səfirin bununla İran bayrağının Heydər Əliyev Mərkəzinin binasında əks olunmasını nəzərdə tutduğu bildirilib.

## Erməni şərqşünası: “Səfirliyin açılması Tehranla mövcud dialoqu dalana dirəyir”

“Mənim üçün birmənalı nəticələr çıxarmaq çətindir”. SİA xəbər verir ki, erməni şərqşünası Vadim Arutyunovun sözlərini Federal Xəbərlər Agentliyi Ermənistanın İsraildə səfirlik açmaq niyyəti ilə bağlı fikirlərini yayıb. Arutyunova görə, bir tərəfdən səfirliyin açılması lazımdır, ancaq digər tərəfdən, bu ziddiyyət yaradır: “Ona görə ki, bu bizə mehriban qonşu olan, necə deyərlər, bütün hallarda bizimlə yanaşı qalan Tehranla mövcud dialoqu dalana dirəyir”. Erməni şərqşünası hökumətdən fərqli olaraq, ictimai rəyin buna qarşı olduğunu da bildirib. “Ermənistanda əsasən, səfirliyin açılmasına qarşı çıxılır, belə ki, bu Yaxın Şərq ölkələri ilə münasibətlərə də zərbə vura bilər”, deyə Vadim Arutyunov qeyd edib.

# Operativ Qərargah: “Daha sərt tədbirlər üçün müraciət edəcəyik”



“Təəssüf ki, karantin rejimini pozan vətəndaşlarımız çoxdur, bu da riskləri artırır”. SİA xəbər verir ki, bunu dünən Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib.

R.Bayramlı deyib ki, təmas nə qədər çoxdursa, yoluxma da o qədər artır: “Simptomlu hallar yoluxmaya səbəb olur. Əgər vətəndaşlarımız karantin rejiminə düzgün əməl etməsələr, daha sərt tədbirlərin görülməsi üçün Operativ Qərargaha, hökumətə müraciət etmək məcburiyyətində qalacağıq. Biz iki-üç həftə səbr etsək, normal həyatımıza qayıda biləcəyik”.

# “Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ regionundakı seçkini rədd edir” “National Herald Tribune”



Illegal Elections in Nagorno-Karabakh: A Critical Analysis

Dr. Mehmood Ul Hassan Khan

Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin (CGSS) ekspertlər heyətinin üzvləri olan Sargodha Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin dosenti Aşfaq Əhmədin müəllifi olduğu “Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ regionundakı seçkini rədd edir” və Mərkəzi Asiya ölkələri və Azərbaycan üzrə mütəxəssis, təhlilçi-yazar Mehmud ul-Həsən Xanın “Dağlıq Qarabağdakı qondarma seçkilər: Tənqidi bir təhlil” adlı məqalələri CGSS-in veb səhifəsində və “National Herald Tribune” qəzetində dərc edilib (keçidlər aşağıda verilir).

https://cgss.com.pk/paper/-pdf/International-Community-Rejects-Election-in-Nagorno-Karabakh-Region.pdf

https://cgss.com.pk/paper/-pdf/Illegal-Elections-in-Nagorno-Karabakh_A-Critical-Analysis.pdf

http://dailynht.com/epaper/main.php?action=epaper&id=main&page=3&dt=07-04-2020

http://dailynht.com/epaper/main.php?action=epaper&id=main&page=5&dt=08-04-2020

SİA-nın verdiyi məlumata görə, məqalələrdə 31 mart 2020-ci ildə Dağlıq Qarabağda keçirilən prezident və parlament seçkilərinin BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının qətnamələrini pozması, Azərbaycan Respublikasının Konstitusiyasına zidd olması, Dağlıq Qarabağın Azərbaycanın suveren ərazisi olduğu və Ermənistan tərəfindən işğal edilməsi, BMT TŞ-nin bu işğalla bağlı Azərbaycanın lehinə qəbul etdiyi qətnamələr, Pakistanın Azərbaycana verdiyi dəstək, keçirilmiş qondarma seçkilərlə bağlı Azərbaycan Respublikası XİN-in bəyanatı, beynəlxalq ictimaiyyət və çoxsaylı dövlət tərəfindən bəhs olunan qondarma seçkilərin pislənməsi kimi məlumatlar əks olunub.

# icaze.e-gov.az portalında işsizliyin qeydiyyatı nəzərdə tutulmayıb

“Xüsusi karantin rejiminin tətbiqi zamanı icazələrin alınması və monitorinqi sistemi” vasitəsilə vətəndaş sorğularının cavablandırılması davam etdirilir. AZƏRTAC Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə istinadən icaze.e-gov.az portalı ilə bağlı ən çox verilən sualların cavablarını təqdim edir. icaze.e-gov.az portalında işsizliyin qeydiyyatı nəzərdə tutulmayıb. Fəaliyyətinə icazə verilən subyekt tərəfindən icaze.e-gov.az portalına “ASAN İmza” və ya “Elektron İmza” ilə daxil olub, işçilərə dair məlumatı daxil edib təsdiqlədikdən sonra icazə əldə etmək mümkündür.




icaze.e-gov.az portalında məlumatlar təsdiqləndikdən sonra onun dəyişdirilməsi və ya ləğv edilməsi mümkün deyil. Məlumatları daxil edən şəxs onu hələ təsdiqləməyibsə, “İcazələr” bölməsində əks olunan “redaktə et” və “sil” düymələrinin köməyi ilə dəyişdirə və ya ləğv edə bilər.

Portal vasitəsilə icazə əldə edən şəxs daxil etdiyi məlumatlarda səhvə yol verib və müraciəti təsdiqləyibsə, icazə üçün yenidən müraciət göndərməlidir.

icaze.e-gov.az portalında işçi barədə məlumatlar sistemə daxil edildikdən və yaşıl işarə əks olunduqdan sonra qeydiyyat təsdiqlənmiş hesab olunur. İstənilən halda işçinin xidməti vəsiqə və ya arayış əldə edərək özü ilə daşıması tövsiyə olunur. Eyni zamanda, icazələrlə bağlı sənəd işlədiyi qurum tərəfindən PDF formatında yüklənərək işçiyə təqdim edilə bilər.

“ASAN İmza” möhürvurma səlahiyyəti ilə bağlı çətinlik olduğu halda 1847 nömrəsi ilə əlaqə saxlamaq olar. Portala FİN kod ilə daxil olmaq mümkün deyil. Portal vasitəsilə icazənin alınıb-alınmamasını işlədiyiniz qurumdan, təşkilatdan öyrənməlisiniz. Portalda “İcazə verilən zona” bölməsində icazəniz hansı istiqamətlər üzrə verilibsə, yalnız həmin rayon (şəhər) üzrə hərəkətiniz mümkündür.

# Əhalinin sağlamlığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirilir

*Dövlət başçısının Sərəncamı ilə modul tipli 6 xəstəxananın quraşdırılmasına dövlət büdcəsindən 14,8 milyon (on dörd milyon səkkiz yüz min) manat ayrılıb*









Əhalinin sağlamlığının qorunması, dünya standartlarına uyğun tibbi yardımla təmin olunması ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Bu gün dünyada yayılan yeni növ koronavirus infeksiyasının coğrafiyasının genişlənməsi ölkəmizdə də bu xəstəliyə yoluxma hallarının qarşısının alınması məqsədilə profilaktik tədbirlərin gücləndirilməsini zəruri edir. Ölkəmizdə koronavirusa qarşı aparılan tədbirlər davam edir, sanitar epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanır, xəstəliyin yayılma coğrafiyasının geniş miqyas aldığını nəzərə alaraq, qabaqlayıcı tədbirlər həyata keçirilir. Bildiyimiz kimi, Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb. Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 19 mart tarixli Fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı və dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikasında koronavirus infeksiyasına qarşı həyata keçirilən səhiyyə tədbirləri üçün Koronavirusla Mübarizəyə Dəstək Fonduna dövlət büdcəsindən ilkin olaraq 20,0 (iyirmi) milyon manat ayrıldı.

Hazırda ölkədə əhalinin "COVID-19"-a dair müayinələrinin keçirilməsi ilə bağlı işlər davam etdirilir, müvafiq laboratoriyalar qurulur, habelə tibb müəssisələri zəruri ləvazimat və preparatlarla təchiz edilir. Görülən bu və ya digər tədbirlərlə yanaşı, Azərbaycan Respublikası Prezidenti 7 aprel tarixində koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə hər birində 200 çarpayı olan modul tipli 6 (altı) xəstəxananın quraşdırılması məqsədilə dövlət büdcəsindən 14,8 milyon (on dörd milyon səkkiz yüz min) manat ayrılıb.

Onu da vurğulmamaq yerinə düşər ki, hazırda ölkəmizdə 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə alır. Təbii ki, bu günlərdə istifadəyə verilən dünya standartlarına cavab verən "Yeni klinika" da bu xəstəxanalar sırasındır. "Bu il martın əvvəlində Mənim iştirakımla bölgələrdə açılmış xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verildi" - deyə çıxışlarının birində qeyd edən Azərbaycan Prezidenti Qazax, Goranboy və Şəmkir şəhərlərində yerləşən ən müasir xəstəxanaların koronavirus xəstələrinin müalicəsi ilə məşğul olduğunu bildirib: "Bu üç xəstəxanada çarpayıların sayı təqribən 500 ətrafındadır. Beləliklə, cəmi bir ay ərzində mindən çox çarpayılıq, ən müasir standartlara uyğun tibbi müəssisələr istifadəyə verildi və orada koronavirus xəstələri müalicə alırlar".

Bütün bunlar dövlət başçısının əhalinin sağlamlığının təmin olunması məsələsinə xüsusi diqqətlə yanaşdığı, eləcə də Azərbaycan dövlətinin koronavirus infeksiyasına yoluxma hallarının qarşısının alınması, insanların sağlamlığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirdiyini bir daha təsdiq edir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Mübariz Qurbanlı Əjdər Tağıoğlunun müraciətini cavablandırdı



***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "Turan Araşdırma Mərkəzi" İctimai Birliyinin sədri professor Əjdər Tağıoğlunun (İsmayılov) ona ünvanladığı müraciətini cavablandırıb. SİA həmin məktubu dərc edir:***

Hörmətli Əjdər müəllim,

Sizin Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri kimi mənə ünvanlanmış müraciətinizi vətənpərvər və humanist Azərbaycan ziyalısının səmimi mövqeyi kimi yüksək qiymətləndirir və təqdir edirəm.

Öncə onu bildirmək istəyirəm ki, bu gün Azərbaycanı Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu uğurlu yolla daim irəli aparan Prezidentimiz cənab İlham Əliyev koronavirus epidemiyasının yayıldığı ilk dövrlərdən etibarən uzaqgörənlik və müdriklik nümayiş etdirərək ölkəmiz üçün qəti və ciddi qərarlar qəbul etmişdir. Həmin qərarların nəticəsidir ki, bu gün Azərbaycan koronavirus epidemiyası ilə mübarizədə nümunəvi ölkə kimi qəbul edilmiş və hökumətimizin bu istiqamətdəki fəaliyyəti Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təqdir edilmişdir.

Azərbaycanda fəaliyyət göstərən müxtəlif dini konfessiyalar, onların rəhbərləri, dini icmalar, din xadimləri, eləcə də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, onun tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutu ilk gündən ölkə Prezidentinin qətiyyətli çağırışlarına qoşulmuşlar. Eyni zamanda müxtəlif dini konfessiyaların liderlərinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyinin, din xadimlərinin iştirakı ilə Qafqaz Müsəlmanları İdarəsində keçirilmiş toplantıda din xadimlərinə və dindarlara müraciət edilərək, onlara ölkədə təşkil olunan xeyriyyə aksiyalarında, ümumiyyətlə cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunmasında aktiv iştirak etmələri tövsiyə olunmuşdur. Bunun nəticəsidir ki, möhtərəm Prezidentimizin fərmanı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna dini icmalar, ziyarətgahlar, din xadimləri, müxtəlif konfessiyalar, o cümlədən sadə dindarlar, eləcə də Dövlət Komitəsinin, Mənəvi Dəyərlərin Təbliği Fondunun, habelə Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşları könüllü ianələr köçürmüşlər. Onu da qeyd edim ki, bu prosesə müxtəlif qurumlar, xeyriyyəçi insanlar da qoşulmuşdur və hazırda uğurla davam etməkdədir.

Hər il minlərlə dindar vətəndaşımız xarici ölkələrdəki müqəddəs məkanları ziyarət edirlər. Bu il də həmin ziyarətlərə getmək niyyətində olan çoxsaylı insanlarımız var. Amma əvvəlki illərdən fərqli olaraq, bu il ziyarətlər üçün nəzərdə tutulan vəsaiti həmin şəxslərin ehtiyacı olan insanlara kömək məqsədi ilə sərf etmək imkanı yaranıb. Əminəm ki, inanclı, dindar insanlarımız İslam peyğəmbəri Həzrəti Məhəmmədin: "Qonşusu ac ikən özü tox yatan bizdən deyildir" - buyruğuna əməl etməklə, yaranmış bu imkanı savab qazanmaq naminə Vətənimiz və insanlarımız üçün xeyirxah əmələ çevirəcəklər.

Hörmətli Əjdər müəllim, Bir daha səmimi müraciətinizə görə Sizə dərin təşəkkürümü bildirir, möhtərəm Prezidentimizin rəhbərliyi altında dövlətimizin bu sınaqdan da uğurla çıxacağına əminliyimi ifadə edirəm.

# "Bizim arxamızda güclü dövlət dayanır"



"Ümumiyyətlə, pandemiya fəlakəti başlayandan bəri ölkəmizin atdığı addımlar, bu fəlakətin nəticələrinin ölkəmizə təsirinin çox az olması üçün, bizim az itki, ziyanla bu problemdən qurtulmağımız, xilas olmağımız üçün dövlətimiz müvafiq tədbirlər görür. Bunlardan biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak etməsi oldu". Bunu SİA-ya millət vəkili Jalə Əliyeva deyib.

"Bundan öncə isə Bakıda yeni klinikanın açılışı oldu. Bu iki müəssisənin hər ikisi bildiyiniz kimi hələ aylar sonra istifadəyə verilməli idi və hətta deyərdim ki, bəlkə də profili də fərqli olmalı idi. Amma bu təcili vəziyyəti nəzərə alan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təşəbbüsləri, səyləri ilə çox qısa bir zamanda hər iki müəssisə işlək vəziyyətə gətirildi. Hər iki hadisə özlüyündə dövlətin hətta forsmajor vəziyyətlərdə belə hər an vətəndaşını düşündüyünü və vətəndaşının yanında olduğunu, vətəndaşının sağlamlığını, təhlükəsizliyinin bir qarantı olduğunu göstərdi, eyni zamanda dövlətin iqtisadi gücünü ortaya qoydu. Yəni iqtisadi imkanlar, iqtisadi güc bizə çox qısa bir zamanda bu iki müəssisəni açmağa imkan verə bildi. Əlbəttə ki, bu da düşünülmüş siyasətin, ölkə rəhbərinin bütün zamanlarda, dövrlərdə atdığı düzgün addımların nəticəsidir. Unutmayaq ki, bundan 10 il əvvəl dünyanı bürüyən iqtisadi böhran Azərbaycandan yan ötdü. Bu yenə də Azərbaycan dövlətinin gücü, qüdrəti idi. Biz bu pandemiya ilə mübarizədə də əminik ki, yenə də qalib gələcəyik. Arzu edirik ki, bütün dünya ölkələri, həmçinin Azərbaycan bu bəladan, problemdən mümkün olduqca az itki ilə qurtula bilsin. Əminik ki, belə də olacaq. Çünki bizim arxamızda güclü dövlət dayanır"-deyə, millət vəkili fikirlərini tamamlayıb.#EvdəQal, #BizBirlikdəGüclüyük

***Ceyhun Rasimoğlu***

# "Məhkumların azad edilməsi ölkəmizdə həyata keçirilən humanist siyasətin növbəti təzahürüdür"



Hazırda nəinki ölkəmiz, bütün dünya həyəcan dolu günlər yaşayır. Planetimiz təhlükəli koronavirus (COVID-19) pandemiyası ilə mübarizə aparır. Virusa yoluxanların və həyatını dəyişənlərin sayı gündən-günə kəskin şəkildə artmaqdadır.

Azərbaycan ilk günlərdən etibarən koronavirusla mübarizədə qabaqlayıcı tədbirlər həyata keçirməyə başladı. Nazirlər Kabineti yanında Operativ Qərargah, Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva nümunəvi addım ataraq birillik əməkhaqlarını fonda ianə etdilər. Ardınca isə nazirliklər, şirkətlər, idarələr və insanlar koronavirusla mübarizə üçün vəsait köçürdülər. Bu, xalq-iqtidar birliyini, milli həmrəyliyi bir daha nümayiş etdirdi.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva söyləyib. Deputatın sözlərinə görə, Azərbaycanda koronavirusun yayılmasının qarşısının alınması istiqamətində dövlətimiz tərəfindən həyata keçirilən tədbirlər, vaxtında qəbul edilən düzgün qərarlar bir çox fəsadların qarşısını aldı. Digər ölkələrlə müqayisədə Azərbaycanda vəziyyətin daha sabit olması alqışlanmalıdır. "Dövlətimiz tərəfindən görülən bütün işlər xalqımızın bu bəladan mümkün qədər az itkilərlə çıxmasına xidmət edir. Biz hazırkı inkişafımıza məhz birliyimiz, həmrəyliyimiz sayəsində nail olmuşuq. Xalqımız dövlətimizin başçısına inanır və Prezidentimiz də hər zaman xalqın yanında olduğunu sübut edib. Prezident İlham Əliyevin Sərəncamına əsasən yaşı 65-dən yuxarı olan məhkumların azad edilməsi bunu bir daha göstərdi. Dövlətimizin başçısı həmin insanları diqqətdən kənarda qoymayaraq COVID-19 ilə əlaqədar onları əfv etdi. Məhkumların azad edilməsi ölkəmizdə həyata keçirilən humanist siyasətin növbəti təzahürü oldu" ,- deyə K.Əliyeva diqqətə çatdırıb.

Deputat Azərbaycan Prezidentinin koronavirus pandemiyası ilə mübarizədə iqtisadi sahədə apardığı siyasətdən də danışıb. Bildirib ki, dövlət virusun iqtisadi sektora təsirini aradan qaldırmaq üçün vaxtında hərəkətə keçib. Prezident İlham Əliyev 19 mart 2020-ci il tarixli Sərəncamı ilə İşçi Qrup yaradılıb və bu qrup koronavirus pandemiyasının ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı təkliflər hazırlayaraq təqdim edib. Dövlət tərəfindən 2,5 milyardlıq dəstək paketi hazırlanıb. Bu, MDB-də ən böyük dəstək paketidir. Bununla yanaşı, 300 mindən çox işçinin əməkhaqqının bir hissəsi dövlət tərəfindən ödəniləcək.

Dövlətin hər zaman xalqın yanında olduğunu vurğulayan deputat deyib: "Azərbaycan xalqı çox humanist, milli adət-ənənələrə hörmət edən xalqdır. Biz bundan da çətin günlər görmüşük, amma çox şükür ki, hamısını adlamışıq. İnanıram ki, Prezidentimizin dəstəyi, xalqın birliyi və Tanrının köməyi ilə bu təhlükənin də öhdəsindən gələcəyik".

# "Tibbi maska müəssisənin istifadəyə verilməsi uğurlu bir addımdır"



"Koronavirus pandemiyası artıq bütün dünya ölkələrini bürüyüb. Dünya ölkələrinin gündəlik həyat fəaliyyətini artıq bu virus iflic vəziyyətinə salıb. Bu günə kimi tibb elmində hələki bu virusa qarşı hansısa baksin, dərman tapılmayıb və nəticədə görürük ki, 1 milyondan artıq insan bu virusa yoluxub, 10 minlərlə insan həyatını itirib. İnsanların bəzisi ən inkişaf etmiş ölkələrdə belə o ölkələrdə qoyulmuş karantin rejiminə əməl etmir və nəticədə koronovirusa yolxuma insanlar arasında tez yayılır". Bunu SİA-ya millət vəkili Cavid Osmanov deyib.

Deputatın sözlərinə görə, Azərbaycan dövləti koronovirus pandemiyasına qarşı hələ ilin əvvəlindən çox ciddi, təsirli və davamlı tədbirlər görməyə başladı: "Təbii ki, bütün bunlar hamısı ilk növbədə cənab Prezidentimizin tapşırığı əsasında həyata keçirilib. Hələ bu ilin yanvarın 24-də koronovirusla əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Belə ki, bütün növ təhsil müəssisələrinin, iri ticarət müəssisələrinin, obyektlərin, mərkəzlərin, "mall"ların fəaliyyəti dayandırıb və 65 yaşdan yuxarı insanların artıq evdən çölə çıxması qadağan olunub. Bununla belə kütləvi tədbirlərin keçirilməsi qadağan edilib. Bakı, Abşeron və Sumqayıta gəliş-gediş məhdudlaşdırılıb, həmçinin bir çox dövlət müəssisələrində çalışan əməkdaşların bir aylıq əməkhaqqısı ödənilməklə bir aylıq məzuniyyətə buraxılıblar. Eləcə də xaricdə qalan soydaşlarımızın ölkəmizə gətirilməsi üçün davamlı tədbirlər həyata keçirilib.

Bu günlərdə ölkə başçısının tapşırığı əsasında Nazirlər Kabinetində "Tədbirlər Planı" da təsdiqlənib. Koronovirus pandemiyasına görə dünyada enerji və səhm bazarlarında kəskin dalğalanmanın aradan qaldırılması ilə Azərbaycan iqtisadiyyatına gələcəkdə ehtimal olunan zərərin aradan qaldırılması məqsədilə 2,5 milyard manat vəsait ayrılıb. Bu da hüquqi və fiziki şəxslərə, sahibkarlara ehtimal olunan zərərin aradan qaldırılması, məşğulluğun artırılması, aztəminatlı ailələri sosial problemlərin həllinə istiqamətləndirmək və s. bu kimi virusun verə biləcəyi zərərin aradan qaldırılması məqsədi daşıyır. Həmçinin ölkə başçısı tərəfindən Koronovirusla Mübarizəyə Dəstək Fondu da yaradılıb. Prezidentimiz bir illik əməkhaqqısını da həmin Fonda ianə etdi. Eyni zamanda Mehriban xanım Əliyeva da öz bir illik əməkhaqqısını sözügedən Fonda köçürdü. Bununla yanaşı cənab Prezidentimizin çağırışına bir çox böyük şirkətlər, banklar, ayrı-ayrı ictimai-siyasi xadimlər, hüquqi və fiziki şəxslər, sahibkarlar və digər insanlar da qoşulub. Azərbaycan dövləti çox qabaqlayıcı və vaxtında olan addımları ölkə rəhbərinin xüsusi tapşırığı əsasında həyata keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışını da etdilər. Dünyada qısa müddət ərzində heç bir ölkədə tibbi maska istehsalı müəssisəsi yaradılmamışdı. İndiki vəziyyətdə bu müəssisənin istifadəyə verilməsi uğurlu bir addımdır".#EvdəQal, #BizBirlikdəGüclüyük

# Əfv Sərəncamı xalq tərəfindən alqışlanır!

## Millət Bəkilləri: "Prezident İlham Əliyevin cəmiyyətdən gələn səslərə həssas reaksiya verməsi vətəndaşlar tərəfindən böyük təqdirlə qarşılanır"

*Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı sərəncamla dünyada koronavirus (COVİD-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan və yaşı 65-dən yuxarı olan 176 məhkum əfv olunub. Bu humanizm qərarı ölkə ictimaiyyətində rəğbət yaradıb. Xüsusilə, vurğulanıb ki, yaşlı insanların qayğısına qalmaq, onların sağlamlıqlarının mühafizəsi ölkə rəhbərliyinin ən ümdə maraqlarından biridir. Parlamentin deputatları da dövlət başçısı İlham Əliyevin bu qərarına dəstək ifadə edirlər.*



### Məşhur Məmmədov: "Azərbaycan xalqı dövlətimizin başçısının həyata keçirdiyi siyasəti, o cümlədən humanist addımlarını birmənalı şəkildə dəstəkləyir, bundan sonra da dəstəkləyəcək"

Milli Məclisin deputatı Məşhur Məmmədov "Səs" qəzetinə açıqlamasında bildirib ki, bundan öncə ölkədə karantin rejiminin elan olunmasını nəzərə alan məhkəmələr 200-dən çox məhkumu cəzalarının çəkilməmiş hissəsindən azad edib: "Ölkə Prezidenti İlham Əliyev daha 176 məhbusu cəzalarının bir hissəsini çəkmələrini nəzərə alaraq, humanizm prinsiplərini rəhbər tutub, əfv edib. Mən Prezidentin bu humanist qərarını alqışlamaqla yanaşı, bunu çətin vəziyyətdə xalqımızın daha sıx birləşməsinə xidmət edəcək həmrəylik addımı kimi də qiymətləndirirəm. İnanmaq istəyirəm ki, həmin şəxslər bir daha qanunları pozub həbsxanaya geri qayıtmayacaq, cəmiyyətimizin inkişafına öz töhfələrini verəcəklər". Məşhur Məmmədov əlavə edib ki, dünyanı koronavirusun cənginə aldığı belə bir ərəfədə əfv fərmanının verilməsi bir çox ailələrə sevinc bəxş edib: "Ümumiyyətlə, İlham Əliyevin cəmiyyətdən gələn səslərə bu dərəcədə həssas reaksiya verməsi həqiqətən vətəndaşlar tərəfindən böyük təqdirlə qarşılanır. Onu da qeyd edim ki, Prezident İlham Əliyev məhbusların bu durumunu, onların ailələrinin müraciətlərini, təcridxanada nizam-intizama əməl etmələrini nəzərə alaraq, belə bir qərar verdi. Məhbusların azadlığa çıxması onların gələcəkdə ictimai faydalı əməklə məşğul olmaları üçün də bir şansdır. Xüsusilə, Azərbaycan xalqı dövlətimizin başçısının həyata keçirdiyi siyasəti, o cümlədən humanist addımlarını birmənalı şəkildə dəstəkləyir, bundan sonra da dəstəkləyəcək".

### İsa Həbibbəyli: "Bu Sərəncam Azərbaycan dövlətinin humanizm prinsiplərinə, demokratik dəyərlərə sadiqliyini bir daha təsdiqləyir"



"Prezident İlham Əliyevin imzaladığı növbəti əfv sərəncamı dövlətimizin humanizm dəyərlərinə sadiqliyinin və eyni zamanda, həmrəylinin daha bir nümunəsidir". Bu fikirləri isə, AMEA-nın vitse-prezidenti, millət vəkili İsa Həbibbəyli bildirib. Onun sözlərinə görə, məhz Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu ənənə dövlətimizin başçısı tərəfindən ardıcıl olaraq həyata keçirilməkdədir. "Bu dəfəki əfv sərəncamında 176 məhkum azadlığa qovuşdu və bu qərar koronavirus infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyacı olan, yaşı 65-dən yuxarı bir sıra məhkumlara şamil olundu", deyən deputat əlavə edib ki, əfv məsələsinə baxılarkən, məhkumların və onların ailə üzvlərinin müraciətləri, məhkumların səhhəti, törətdikləri cinayətlər, cəza çəkdikləri müddətdə davranışları və digər məsələlər də nəzərə alınıb: "Qeyd edim ki, dövlətin belə məhkumları əfv etməsi həmin insanların özlərinə olan inamını artırır, gələcəkdə öz həyatlarını qanunlara hörmət çərçivəsində davam etdirərək, ölkənin layiqli vətəndaşı olmağa sövq edir. Bu baxımdan, dövlətin humanist siyasətini xalqımız yüksək qiymətləndirir. Əlbəttə ki, həmrəylik nümunəsi olan bu addım cəmiyyətdə qarşılıqlı hörmət və rəğbət, eləcə də, qanunçuluq prinsiplərinə söykənən vətəndaş-dövlət münasibətləri baxımından əhəmiyyət kəsb edir. Beləliklə, bu sərəncam da Azərbaycan dövlətinin humanizm prinsiplərinə, demokratik dəyərlərə sadiqliyi bir daha təsdiqləyir. Bizim üçün əsas olan xalqımızın mövqeyidir ki, Azərbaycan xalqı dövlətimizin başçısının həyata keçirdiyi siyasəti, o cümlədən humanist addımlarını birmənalı şəkildə dəstəkləyir".

**Rəfiqə HÜSEYNOVA**

# Qalib Salahzadə: "Ölkə rəhbərinin addımları ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir"

*"Humanizmə, qayğıkeşliyə, əsasən də, həmrəyliyə söykənən sosialyönümlü qərarların qəbulu Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təməl prinsipidir". Bu fikirləri "Səs" qəzetinə millət vəkili Əliabbas Salahzadə sonuncu əvf Sərəncamını şərh edərkən deyib. Onun sözlərinə görə, dünyanın koronavirus təhlükəsi bürüdüyü bir zamanda, eləcə də, insanların həyatının həssas vaxtında, 65 və daha artıq yaşı olan məhbusların əfv olunmaları onların özləri ilə yanaşı, həm də ailələrinə sevinc bəxş edib: "Məhz bu faktor möhtərəm Prezidentimizin idarəçilik üslubudur.*

Çünki o daim öz çıxışlarında vurğulayıb ki, insan amili onun üçün əsasdır. Ona görə də, dünyada insanların qlobal təhlükə mənbəyi olan koronavirusla üzləşdiyi, bir çox ölkələrdə insanların təlaş və təşviş içində olduğu məqamda ölkəmizdə 176 nəfər məhkumun cəzasının bağışlanaraq azadlığına qovuşmasını təmin edən ölkə rəhbərinin addımları ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir".

"Sözsüz ki, bu ərəfədə belə bir əfv sərəncamının verilməsi 176 ailənin sıxıntılı dönəmlərində onlara sevinc bəxş edilməsi humanizm nöqteyi-nəzərdən çox təqdirəlayiqdir", deyən deputat onu da qeyd edib ki, ümumiyyətlə ölkəmizdə son illərdə məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlara diqqət etsək, möhtərəm Prezidentimizin bu sahədə humanist siyasətinin, xüsusən cəzaların humanistləşməsinin bir daha şahidi oluruq: "Xüsusilə, bu Sərəncam bütün hallarda vətəndaşının yanında olan, onların sevincinə də, kədərinə də şərik çıxan Prezidentimiz İlham Əliyevin həyat amalının xalqın maddi-rifahının, həyat şəraitinin, təhlükəsizliyinin təmin edilməsi olduğunun təsdiqidir. O cümlədən, əfv olunan insanların sağlamlığını qorumaq, onları virusa yoluxmaqdan uzaq tutmaq, üçün atılan addımın dövlətin humanist siyasətinin, vətəndaşa verilən diqqət və qayğının ardı-arası kəsilməyən nümunələrindən biri kimi qəbul edildi".




**Rəfiqə**

# Yeni Azərbaycan Partiyası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə tənhalara, ahıllara sosial xidməti davam etdirir #EvdəQal, #BizBirlikdəGüclüyük

*Koronavirusa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə ölkəmizdə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması və bütün cəmiyyətimizin dövlətimizin başçısının təşəbbüsünə dəstək verməsi xalqın həmrəyliyinin və dövlətinə inamının ifadəsidir.*





Azərbaycan Prezidenti İlham Əliyevin çağırışına əsasən, karantin rejimi ilə əlaqədar olaraq yaşı 65-i keçmiş insanlara Yeni Azərbaycan Partiyasının könüllüləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial işçiləri ilə birlikdə martın 27-dən tənhalara, ahıl vətəndaşlara yardım paylayır, onlara sosial xidmətlər göstərirlər.

Aksiya çərçivəsində YAP-ın könüllüləri və ƏƏSMN-nin sosial işçiləri ahılların mənzillərində olur, gündəlik lazım olan ərzaq və tibbi vasitələrini onlara təqdim edirlər.

Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən martın 24-dən aprelin 20-dək ölkədə xüsusi karantin rejimi elan edildiyindən və bu tədbirlər çərçivəsində 65 yaşdan yuxarı şəxslərin evdən çıxması qadağan olunduğundan YAP-ın fəalları və könüllüləri bu qəbildən olan tənha yaşayan sakinlərə yardımlar edir, sosial xidmət göstərirlər.

# Erməni saytı Nikol Paşinyanı və hökumətini virus adlandırdı

## *"7or.am": "Koronavirus ətrafında siyasi şou"*







***"Koronavirusla bağlı məsələ Nikol Paşinyanın rəhbərlik etdiyi hökumətin qeyri-ciddiliyini və ictimai təhlükəyə yol açdığını növbəti dəfə aşkar etdi". Bu barədə Ermənistanın "7or.am" xəbər saytının təhlil bölməsində yazılıb. Ermənistan hakimiyyətinin bir-birini təkzib edən bəyanat və rəylərini ifşa edən yazıda xronoloji sıralama ilə bir sıra məqamlara toxunulub: "Gəlin xronologiyaya nəzər salaq. Öncə, İranla bağlı təhlükədən danışanları - "əgər bu problem İranda varsa, demək bizdə də olacaq və ona görə də təxirəsalınmaz ölçülər götürülməlidir" iddiasında olanları tənqid edirdilər. "Mənim addımım"ın ştatlı təmsilçiləri iddia edirdilər ki, heç bir problem yoxdur. Ancaq onların bəyanatlarından sonra Nikol İranla sərhədləri bağladı".***

### "Onun yaltaqları sübut etməyə çalışırdılar ki, bu şayiəni "qaralar" yaymağa çalışırlar"

Ermənistan xəbər agentliyi daha sonra Paşinyanın digər addımlarını ifşa edərək yazır ki, erməni baş nazir hər şeyin normal olduğunu deyib və martın 1-də yürüş vaxtını təyin etməklə, siyasi şou yaratmağa çalışıb: "Mütəxəssislər isə yalnız 1 martı deyil, ümumiyyətlə, belə bir zamanda yürüşlərin keçirilməsinin yolverilməz olduğunu bildirdilər. Belə ki, virusun yayılması təhlükəsi qalmaqdadır. Həmin mərhələdə Nikolun yürüşün vaxtının dəyişdirilməsi ilə bağlı qərarı yox idi. Onun yaltaqları sübut etməyə çalışırdılar ki, bu şayiəni "qaralar" yaymağa çalışırlar. Nikol anlayanda ki, yürüşdə az adam iştirak edəcək, yəni lazımi qədər iştirakçı yığılmayacaq, dərhal İrəvanda koronavirus yoluxması barədə danışdı və hesab etdi ki, yürüşü təxirə salmaq lazımdır".




### "Nəticədə Arsen Torosyan axmaq vəziyyətdə qaldı..."

Adıçəkilən erməni saytı daha sonra qeyd edir ki, onun (Nikol Paşinyanın) tərəfindən təyin edilmiş nazirlər özlərini müvafiq vaxtda əsl inqilabçılar kimi apardılar. Yəni xalqı qorxaqlıqda ittiham edərək, ictimaiyyəti qınayan fikirlər səsləndirdilər: "Biri yazdı ki, əgər bu qədər virusdan qorxursunuzsa, uşaqlarınızı məktəblərə yollamayın. Səhiyyə naziri isə bəyan etdi ki, o öz uşağını məktəbə yola salacaq. Arsen Torosyan həmin bəyanatını verər-verməz, Nikol Paşinyan təhsil müəssisələrinin bir həftəliyinə bağlanması qərarını verdi. Nəticədə, Arsen Torosyan axmaq vəziyyətində qaldı və onun öz uşaqlarını məktəbə göndərib-göndərməməsi, ya da partiya və rəhbərinin qərarına tabe olması bəlli deyil".

Sayt sonda yazır ki, virusun daşıyıcısına gəlincə, Nikol və Arsen birgə hazırladıqları və bir-birinə zidd olan ifadələrlə, marazm bəyanatları ilə müşahidə edilən tamaşanı oynayıblar. " Bir sözlə, Ermənistanda daha təhlükəli virus var. Özü də bu virus "korona"nın gəlməsinə qədər ölkəyə daxil olub" deyə bildirilir.

**Rövşən NURƏDDİNOĞLU**

# "Nar" şəbəkəsi ölkəni fasiləsiz və yüksəksürətli internetlə təmin edir




***"Nar" karantin müddətində abunəçilərinin artan telekommunikasiya tələblərinə cavab vermək üçün şəbəkə dayanıqlılığını tam şəkildə təmin edir. Mobil operator həm paytaxt, həm də region sakinlərinin mobil rabitə tələblərini tam ödəmək, eyni zamanda, onları yüksəksürətli, kəsintisiz internetlə təmin etmək məqsədilə bütün baza stansiyaları üzrə şəbəkə tutumunu əhəmiyyətli dərəcədə genişləndirib.***

Mobil rabitə şəbəkəsinin stabilliyini təmin etmək və şəbəkə istifadəçilərinə dəstək olmaq məqsədilə, 24/7 rejimində şəbəkə üzrə təhlillər və optimizasiya işləri həyata keçirilir, texniki heyət isə gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

Bildirək ki, abunəçilər "Nar"ın sərfəli şərtlərlə təqdim etdiyi müxtəlif internet paketləri ilə indi daha çox ünsiyyətdə olurlar. Belə ki, əvvəlki dövrlə müqayisədə karantin müddətində "Nar" şəbəkəsində internetdən istifadənin həcmi 20% artıb.

Hazırda "Nar"ın 4G və 4/4.5G texnologiyalı baza stansiyaları ölkənin 54 regionunda əhalini yüksəksürətli internet və zəng xidmətləri ilə təmin edir. Operator ötən il ərzində 4G/4.5G baza stansiyalarının coğrafi əhatə dairəsini 245%, ölkə əhalisi üzrə əhatə dairəsini isə 80% artırmağa nail olub.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,7%-ni əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2.3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# SOS: "Biz birlikdə güclüyük!"dən hansı nəticəni çıxarmalıyıq?

## *Yalnız vətəndaş məsuliyyəti, milli birlik və həmrəylik faktoru çətin sınaq üzərindəki qələbəni şərtləndirə bilər!*

***Bütün dünyada olduğu kimi, Azərbaycan da bəşər övladına meydan oxuyan "COVID-19" adlandırılan amansız və təhlükəli infeksiyaya - koronavirusa qarşı mübarizə aparmaqdadır. Qlobal pandemiya mühiti demək olar ki, hər gün yüzlərlə insanın həyatına son qoyur, virusa yoluxanların sayı isə durmadan artır. Məhz belə bir vəziyyətdə bütün dünyada evdə qalmaq və həyatı qorumaq üçün müxtəlif şüarlar səsləndirilir, təbliğatlar aparılır.***






Azərbaycanda da "Evdə qal, Azərbaycan!" və "Biz birlikdə güclüyük!" şüarları vətəndaşların üzərinə böyük məsuliyyət qoyur, təhlükənin aradan qaldırılması istiqamətində bütün imkanlardan maksimum istifadə edilir, o cümlədən, dövlət də vətəndaşının mühafizəsi üçün müvafiq addımlarını atır. Dövlət lazımi tədbirlərini ən yüksək səviyyədə həyata keçirsə də, təəssüf ki, bir sıra məsuliyyətsiz vətəndaşlar hələ də vəziyyətin ciddiliyini ya anlamır, ya da anlamaq istəmirlər.

Yeri gəlmişkən, Prezident İlham Əliyev bu xüsusda dəfələrlə bəyan edib ki, Azərbaycan dövləti daim öz vətəndaşının yanındadır və koronavirusun aradan qaldırılması üçün vətəndaş da dövlətinə dəstək olmalı, qoyulan tələblərə riayət etməlidir. Bu, ən sadə və optimal çıxış yollarından biridir ki, insanlar evlərində qalmalı, özlərinin, ətraflarının sağlamlıqlarının müdafiəsi üçün sınaqdan üzüağ çıxmalıdır. Təəssüf ki, buna məhəl qoymayanlar bütövlükdə cəmiyyətin həyatını kəskin risk altında qoyurlar. Halbuki Nazirlər Kabineti yanında operativ qərargah hər gün fəsadlar barədə məlumatlar verir, əhaliyə xəbərdarlıqları çatdırır. Xüsusilə, martın 29-da və 31-də tətbiq edilən ciddi karantin rejiminə keçidin bəyan edilməsi artıq birmənalı olaraq, üzərlərindəki məsuliyyəti dərk etməyən şəxslərin diqqətinə almalıdır!

### Bu kimi çoxsaylı faktlar da bizləri - səni, məni, onu dərin şəkildə düşündürməlidir ki...

Paytaxt və bölgələrimizdə kütləvi və geniş miqyaslı dezinfeksiya işləri aparılır və eyni zamanda həkimlərimiz, polislərimiz xalqın xidmətində dayanaraq, belə bir çətin vəziyyətdə vəzifələrinin öhdəlindən gəlirlər. Sosial şəbəkələrdə, mediada onların fəaliyyətlərinin görünməyən tərəfləri ictimailəşdirilir, insanlıq qarşısındakı fədakarlıqları barədə hadisələr diqqətə çatdırılır. Məhz bu kimi çoxsaylı faktlar da bizləri - səni, məni, onu dərin şəkildə düşündürməlidir ki, axı bütün bunlar bizə görə edilir, həyat riskinə və s. təhlükələrə rəğmən!

Bu gün ölkəmizdə mövcud olan epidemioloji durum dünyada da eynilik təşkil edir. Hər bir ölkədə sərt karantin rejimi mövcuddur. O cümlədən, xarici ölkələrdə yaşayan soydaşlarımızın, tələbələrimizin, müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamlarının vətənə geri gətirmələrinin ardınca, onların 14 günlük karantində saxlanılması həm də testlərdən keçirilməsi yoluxucu infeksiyanın qarşısının alınması üçün atılan mühüm addımlardır. Digər ölkələrdən fərqli olaraq, Azərbaycanda karantin rejimində saxlanılan insanlarımız üçün ən mükəmməl şəraitlər yaradılıb. Artıq bu günə qədər onlarla vətəndaşlarımız karantin rejimini keçərək, evlərinə buraxılıblar.

### Bəs digər ölkələrdə kritik vəziyyət nə yerdədir?

Bəs yaxın və uzaq xarici ölkələrdə vəziyyət necədir? Çünki bildiyimiz və müxtəlif xəbərlərdən əldə etdiyimiz informasiyalara görə, hətta ən aparıcı dövlətlərdə kifayət qədər gərginliklər yaşanır. ABŞ-da yaşanan kritik vəziyyət Nyu-York ştatında vahiməli görüntülərə səbəb olub. Belə ki, ştatın mərkəzi hissələrində baş verən ölüm hallarına görə daşınan morqlar qurdaşdırılıb. Çünki xəstəxanalar və onların nəzdindəki morqlar buna davam gətirə bilmir. İtaliyada, İspaniyada, Fransada, Almaniyada və s. Avropa ölkələrindəki vəziyyət barədə də hər kəs məlumatlıdır. Xüsusilə İtaliya və İspaniyada xəstəxana palataları dolduğuna görə, xəstələr dəhlizlərdə müalicə almaq məcburiyyətindədirlər. O cümlədən, həyatlarını itirənlərin dəfn olunması belə, ciddi problemə çevrilib. Latın Amerikası ölkələrində - Braziliyada, Kolumbiyada və s. ölkələrdə ərzaq çatışmazlığı yaranıb və insanlar marketlərə, ərzaq bazalarına, habelə ərzaq daşıyan maşınlara hücum edərək, onları talan etmək məcburiyyətində qalıblar. İnsanların karantin, eləcə də fövqəladə vəziyyətlərə riayət etməmələrinə görə ən sərt tədbirlərə, silaha belə əl atılır. Hindistanda, Çində və s. ölkələrdə hətta zor gücü tətbiq edilir, həbsər keçirilir və s.

Dövlətimizin gördüyü təxirəsalınmaz işlər sayəsində vətəndaşların gündəlik qida və s. təminatlarını yüksək səviyyədə reallaşdırmaqdadır

Azərbaycanda isə öncədən görülən tədbirlər bütün bu kimi vəziyyətlərin yaşanmaması üçün bütün şəraitləri yaradıb. Ərzaq dükanlarında, marketlərdə hər zaman olduğu kimi bolluq və çeşidlik mövcuddur. Bu baxımdan, dövlətimizin gördüyü təxirəsalınmaz işlər sayəsində vətəndaşların gündəlik qida və s. təminatlarını yüksək səviyyədə reallaşdırmaqdadır. Təbii ki, vətəndaşlar da bunları qavramaqla dövlətinə virusla mübarizədə tələb edilən qaydalara əməl etməklə dəstək dayanmalıdırlar. Ölkə və vətəndaşlar real təhlükə mərhələsinə qədəm qoyub. Bu baxımdan, "Biz birlikdə güclüyük!" şüarı gündəlik həyatımızın ən vacib amilinə çevrilib. Əks halda, qaydalara məhəl qoymayanları da ciddi cəza tədbirləri gözləyə bilər. Hər kəs anlamalıdır ki, koronavirusla bağlı vəziyyət ən pis ssenari üzrə inkişaf edir və məsuliyyətsiz davranılacağı, qaydalara riayət olunmayacağı təqdirdə daha da pisləşə bilər. Sirr deyil ki, yoluxma və ölümlərin sayı artır, bundan sonra da çoxalacağı ehtimal olunur. Evdən çıxmaqla, hər bir kənar şəxslə təmas infeksiyaya yoluxma və ölüm deməkdir. O cümlədən, hər bir məsuliyyətsiz davranma, hər bir qayda pozuntusu xəstələnmək və öz həyatını, ətrafını risk altına atmaq deməkdir. Sağlam olmaq, belə bir vəziyyətdən salamatlıqla qurtarmaq isə, hər bir vətəndaşımızın haqqıdır və bu haqları pozanlar əlbəttə ki, qanunlarımız qarşısında mütləq cavab verməli olacaqlar!

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycan "COVID-19" ilə mübarizədə sistemli tədbirlər reallaşır



Bu gün bütün dünya bəşəriyyəti bürümüş qorxunc virusla - koronavirus pandemiyası ilə üzüzədir. Çox çətin və gərgin zaman yaşayan dünya gözə görünməyən düşmən kimi adlandırılan bəla ilə mübarizədədir. Böyük elmi nailiyyətlərin əldə olunduğu iyirmi birinci yüzillikdə koronavirus pandemiyasının qarşısını almaq müşkülə çevrilib. Bu gün bütün dünya ölkələri kimi Azərbaycan da öz gücü, potensialı daxilində koronavirus infeksiyası ilə mübarizədədir. Belə ki, dövlət başçısı tərəfindən qabaqlayıcı, profilaktik və sistemli olaraq tədbirlər həyata keçirilir. Virusa yoluxma hallarının sayının azaldılması üçün dövlət tərəfindən tətbiq edilən qaydalar həyata keçirilir.




Hər zaman dövlətimizin uğurlarını diqqətdə saxlayan dünya mətbuatı bu gün də belə bir gərgin zamanda Azərbaycanda insanların sağlamlığına ayrılan diqqətə biganə qala bilmir. Misirin "Aldiplomacy" portalında Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərindən və Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışından bəhs edən geniş məqalə yer alıb. "Cənab Prezidentin tapşırığı əsasında Azərbaycan "COVID-19" ilə mübarizədə özünü tibbi ləvazimatla təmin edib" sərlövhəli məqalədə Prezident İlham Əliyevin tapşırığına əsasən, aidiyyəti dövlət qurumlarının qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalın Azərbaycana gətirilməsinə nail olduğu qeyd edilib.

Təbii ki, Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı da görülən işlərin davamıdır. Tibbi maska istehsalı müəssisəsinin açılışı koronavirus pandemiyası ilə əlaqədar tələbatın kəskin artması səbəbindən zəruri olmuşdu.

Azərbaycanda tibbi maska istehsalına başlanılması dövlətimizin əhalinin sağlamlığının qorunması məsələsinə nə dərəcədə diqqətlə və həssas yanaşmasını göstərir və sübut edir ki, Azərbaycanda dövlət tərəfindən bu istiqamətdə konkret və ardıcıl tədbirlər görülür. Müəssisədə İSO beynəlxalq standartlarına uyğun xammaldan istifadə olunmaqla birinci mərhələdə hər gün 120 min tibbi maska istehsalı nəzərdə tutulub. Yaxın günlərdə daha bir istehsal xətti qurulacaq və ikinci mərhələdə istehsal həcmi 2 dəfə artırılaraq gündəlik istehsal 200-250 min tibbi maskaya çatdırılacaq. Reallaşan tədbirlər "COVID-19" infeksiyasının yayılmasının qarşısının vaxtında alınmasında mühüm tədbirlər həyata keçirilməsində rol oynayır.

Azərbaycan vətəndaşı isə belə bir çətin məqamda məsuliyyətli olmalı, dövlətimizin etdiyi çağırışlara düzgün əməl etməlidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycan yaxın gələcəkdə tibbi ləvazimatları ixrac edən ölkəyə çevriləcək"



"Bu bir faktdır ki, koronavirus pandemiyası ilə əlaqədar tələbatın kəskin artması səbəbindən hazırda bütün ölkələrdə tibbi ləvazimat və qoruyucu vasitələrin, o cümlədən maskanın böyük qıtlığı yaşanır. İstehsalçı ölkələr isə tibbi maska ixracını dayandırmaqla yanaşı, istehsal avadanlığı və xammalın ixracını da saxlayıblar. Lakin koronavirus pandemiyasının qarşısının alınması ilə bağlı Azərbaycanda həyata keçirilən bütün işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzində olduğundan, dövlətimizin başçısı əhalinin sağlamlığının təmin olunması məsələsinə xüsusi diqqətlə yanaşdığından, məhz onun tapşırığına əsasən aidiyyəti dövlət qurumları qısa müddətdə tibbi maska istehsalı avadanlığı və xammalın Azərbaycana gətirilməsinə nail oldular." Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, hələ iki həftə əvvəl ölkəmizdə tibbi maska istehsalına başlanılması üçün dövlətimizin başçısı tərəfindən birbaşa göstərişin verilməsi onu göstərirdi ki, Prezident İlham Əliyev koronavirus pandemiyasının xalqımızın sağlamlığına az zərər vurmasını təmin etməkdə israrlıdır: "Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak etmələri bunu bir daha sübut etdi. Yeni açılan müəssisədə birinci mərhələdə hər gün 120 min tibbi maska istehsal edilməsi nəzərdə tutulub. Yaxın günlərdə isə istehsal həcminin 2 dəfə artırılaraq gündəlik 200-250 min tibbi maskaya çatdırılması nəzərdə tutulur. Bu da o deməkdir ki, artıq Azərbaycan tibbi ləvazimatları idxal edən yox, onların istehsalı ilə məşğul olan və gələcəkdə ixrac edəcək ölkəyə çevrilir. Beləliklə, koronavirusla mübarizədə dünyanın bir çox ölkələrində tibbi ləvazimatlarla bağlı yaranan problemlər artıq bizim ölkəmizdə öz müsbət həllini tapır".

"İki həftə ərzində gündəlik 250 min tibbi maska hazırlaya biləcək müəssisənin qurulması və istehsala başlanılması ölkəmizin iqtisadi qüdrətinin əyani sübutudur" deyən Vüqar Rəhimzadə əlavə edib ki, tibbi maska və dezinfeksiya vasitələrinin istehsalı sahəsində ölkəmizdə yaradılmış şərait bizə çox qısa zamanda daxili tələbatımızı özümüzün yerli istehsalımız hesabına ödəməyimizə imkan verəcək.

***Ceyhun Rasimoğlu***

# "10 ildir ki, Ermənistan İsrailə yalvarır"




***"İsrailin Ermənistanla əlaqələrinin artması və bu əlaqələrin İranın əleyhinə olması ilə bağlı deyilənlər düzdür. Lakin, İran bunu belə qəbul etməyəcək". Bu sözləri SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu Ermənistanla İsrail arasındakı əlaqələrin genişləndirilməsi fonunda İranla Ermənistan arasında olan münasibətlərin korlanması məsələsinə münasibət bildirərkən deyib.***

"Ermənistan yalvara-yalvara İsraillə əlaqələr qurdu. Düz 10 ildir ki, Ermənistan İsrailə yalvarırdı. Hətta qondarma erməni soyqırımını tanımasa belə İsraillə əlaqələrinin olmasını istəyirdi. Bu gün Ermənistan mətbuatının yazdığına görə, Gümrü şəhərində İsrail İrana qarşı hərbi baza tikir. Üstəlik ona görə gömrükdə tikir ki, burada həm də Rusiyanın hərbi bazası var. Bununla da İran raketlə Ermənistanın ərazisindəki İsrailin hərbi bazasını bombalaya bilməyəcək. Ona görə də həmin hərbi baza rus bazasının yanında tikilir".

Ekspert vurğulayıb ki, Ermənistanın bu koronavirus dövründə ən çox üz tutduğu dövlət də İsrail idi: "Ermənistan Prezidenti Armen Sarkisyan İsrailin Prezidenti ilə telefonla danışdı və onun göstərişi ilə Ermənistanın Səhiyyə naziri İsrailin Səhiyyə naziri ilə danışdı. Həmçinin, Armen Sarkisyan İsrailin Səhiyyə naziri ilə koronavirus ilə əlaqədar məsələləri müzakirə etdi. Armen Sarkisyanın göstərişi ilə Ermənistanın bütün mütəxəssisləri ayrı-ayrılıqda israilli həmkarları əlaqələndirildi. Yəni, məqsəd göstərmək idi ki, koronavirus dövründə Ermənistanın ən çox istinad etdiyi və söykəndiyi, ümid etdiyi dövlət İsraildir. Bunların hamısı həqiqətdir.

Lakin, İran İsrail və Ermənistan müttəfiqliyini dilə gətirməz, çünki, İran bu sözü desə gərək İran-Azərbaycan-İsrail əlaqələri ilə bağlı dediklərinin üstündən xətt çəksin. İranda anti-azərbaycançılıq hədsiz çox güclüdür. İran Ermənistan və İsrail münasibətlərindən açıq danışmır. Lakin, İran bütün proseslərdən xəbərdardır. İran bilir ki, İsrail Ermənistanın yalvarışlarına ona görə cavab verdi ki, Azərbaycan İsrailin anti-İran planına qulaq asmadı. Çünki, Azərbaycan dövləti müstəqil dövlətdir və özünün müstəqil siyasətini aparmağı bacarır. Ermənistan isə oyuncaq dövlətdir. 5-10 milyon pul qarşılığında tapşırılan istiqamətdə danışır. Əgər İsrail İran istiqamətində Azərbaycandan istədiklərini ala bilsəydi heç vaxt Ermənistanla əlaqələrə ehtiyacı qalmazdı.

Bütün bu prosesləri ümumiləşdirdikdə İsrailin Ermənistanla əlaqələrinin artması barədə və bu əlaqələrin İranın əleyhinə olması ilə bağlı deyilənlər düzdür. Lakin, İran bunu belə qəbul etməyəcək".

***Nigar Məmmədova***

# Fransa portalı Azərbaycanın iqtisadi inkişafından yazır




Fransanın "Entreprises-et-decideurs" portalında "Azərbaycan: iqtisadi tərəqqi və sərmayə axtarışı" sərlövhəli məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Avropa, Asiya və Yaxın Şərqin qovuşuğunda yerləşən, Fransanın Qafqazda birinci ticarət tərəfdaşı olan Azərbaycanın iqtisadiyyatından, sərmayə yatırımı imkanlarından bəhs olunur. Bildirilib ki, zəngin karbohidrogen və təbii ehtiyatları sayəsində ölkəmiz dünyada əsas iqtisadi oyunçuya çevrilib.

Məqalədə Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Merin 2019-cu ilin iyul ayında Bakıya səfərindən və bu səfərin iki ölkə arasında iqtisadi mübadilənin davamlı inkişafının yeni mərhələsinin başlanğıcı olmasından söz açılıb. Həmçinin 1993-cü ildə ulu öndər Heydər Əliyevin ilk rəsmi səfərini Fransaya etməsindən və bu səfərdən sonra iki ölkə arasında əlaqələrin inkişafının sürətlənməsindən danışılıb. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən sonra ölkəmizdə iqtisadiyyatın sürətli inkişafı diqqətə çatdırılıb.

Bununla yanaşı, Ələt azad iqtisadi zonası, Bakı-Tbilisi-Qars dəmir yolu, eləcə də TANAP - Transanadolu qaz boru xətti layihələri haqqında məlumat verilib. Fransanın böyük şirkətlərinin ölkəmizdə fəaliyyətinə toxunulub. Habelə Azərbaycanın ev sahibliyi etdiyi böyük beynəlxalq tədbirlərdən, Fransada mədəniyyət sahəsində həyata keçirdiyi layihələrdən danışılıb.

# “Belə davam etsə, Ermənistan bir dövlət kimi iflasa uğrayacaq”

***“Ermənistanla İsrailin yaxınlaşması, daha doğrusu yaxınlaşmaq istəyi dəfələrlə gündəmə gəlib, hələlik bu alınmayıb”. Bunu SİA-ya müsahibəsində politoloq Cümşüd Nuriyev deyib. Onun sözlərinə görə, bu yaxınlaşma istəyinin bundan sonra da alınmaq ehtimalı aşağıdır: “Mən burada bir sifarişi görürəm. Bu Rusiyadan olan sifarişdir. Bilirsiz ki, Rusiyanın Baş naziri Mişustin yarım ermənidir. Bu dəqiqə dünyanın idarə olunmasında İsrail çox böyük rol oynayır. Onlar Rusiyanı bir növ Amerika ilə təhdid edirlər və mənə elə gəlir ki, bu məsələni gündəmə gətiriblər. Çünki, bu İsrailin sifarişidir.***

Əsas məqsəd Ermənistandan istifadə etməklə İranı daha da qıcıqlandırmaqdır. İran təbii ki, bunu Ermənistana bağışlamayacaq, bu birmənalıdır. Ermənistan da İranla bəzi oyunlarını qurmaq istəyir. Çünki bilirik ki, onlar arasında dəmiryol xətti çəkilməli idi, su anbarı tikilməli idi, avtomobil yolu çəkilməli idi, İranla Ermənistan arasında yeni qapılar açılmalı idi, Ermənistanın daxili bazarında İran mallarının geniş çeşidinin satılması nəzərdə tutulmuşdu. Yəni, bu məsələlərin hələ ki, heç biri baş tutmayıb. Amma erməniləri ən çox narahat edən odur ki, İranda yaşayan azərbaycanlılar İrəvanın birmənalı şəkildə daşınmaz əmlakını ələ keçirməyə başlayıb. Ermənistan bir dövlət kimi özü-özünə məxsus deyil. Onun bütün infrastrukturları Rusiyanın əlindədir. Hava nəqliyyatı Argentinanın əlindədir, Yunanıstan orada telekomunikasiyaya nəzarət edir, Ermənistanın bir dənə yolu Gürcüstandan keçir ki, Gürcüstan da artıq bunu qəbul eləmir. Yəni Azərbaycanın blokada siyasəti Ermənistanı elə bir vəziyyətə salıb ki, onlar hər tərəfi bağlı bir otağa salınmış bir adam kimidir. Onlar bilmirlər hardansa bir yer tapsınlar ki, oradan çıxsınlar. İndi belə fikirləşirlər ki, İsrailə yaxınlaşmaq adı ilə Rusiyanın həm tapşırığını yerinə yetirsinlər, həm də buradan guya ki, Azərbaycana acıq verəcəkdilər. Çünki, Azərbaycan-İsrail münasibətləri çox yüksək səviyyədədir. Həm də Xolokost məsələsində bunlar özlərinin bu saxta soyqırımını gündəmə gətirmək istəyirlər. Çünki, bütün dünya mediası yəhudi lobbisinin əlindədir. Yəni, ermənilər burada çoxməqsədli və çoxçeşidli siyasi faktorlardan yararlanmaq istəyirlər. Amma bir şeyi başa düşmürlər ki, bunlar, yəni İsrail dünyanın ən ağıllı, amma hiyləgər siyasət yürüdən bir dövlətidir. Onun ən azı 7 min illik tarixi məlumdur bu günə qədər. Ermənistanın isə hardasa 25 ilə yaxın tarixi var, dövlət kimi. Ona görə də Ermənistan bu siyasətdə də uduzacaq. İnanmıram ki, İsrail Azərbaycanla Ermənistan arasında seçim qarşısında qalsa Ermənistanı seçsin. Bu mümkün olan bir şey deyil. Çünki, Ermənistanı seçsə Azərbaycan ilə olan münasibətləri yeni müstəviyə keçə bilər, bu da ki, İsrailin məhvi deməkdir. İnanmıram ona gedərlər. Amma bir məsələ də var ki, bunu Ermənistan mətbuatı yayıb ki, İsrail hələ bunu təsdiqləməyib və bəzi saxta saytlar kimi portallarda ermənilər verirlər. Amma nə İsrail dövlətinin mövqeyi var, nə İsrail knesseti belə bir qərar qəbul edib. Bunlar Daqğlıq Qarabağda saxta seçki keçirmək istəyirlər, bunların koronavirus problemləri var, yüksək borc statusundadırlar. Bir var mülayim borc, bir də var yüksək borc. Yəni ümummilli gəliri 80 faizindən yuxarı olanda artıq dövlət yüksək borc statusuna girir. Bu dünya bankının müəyyən elədiyidir. Çünki, Azərbaycan orada borcu olmayan, yəni borcu mülayim olandan da aşağı olan dövlətlər siyahısındadır. Ermənistan artıq o həddi keçib və böhran həddinə yaxınlaşıb. Çünki, böhran həddi 220 faizdir. Ermənistanın hal-hazırda, yəni, aprelin 1-nə olan məlumat belədir ki, Ermənistanın xarici borcla olan münasibətdə ödəmələri ona xidmət göstərməlidir. Bu artıq 15 faizi keçib, yəni, yaxın 3 ay ərzində bu şəkildə davam elədə Ermənistan bir dövlət kimi iflasa uğramalıdır. Ona görə də burada diqqəti yayındırmağa çalışırlar və Paşinyan da hakimiyyətə 2 ildir gəlib və heç bir şey edə bilməyib. Bütün bunların hamısı daxili publikaya, daxili auditoriyaya hesablanmış şeylərdir. Amma Azərbaycan mətbuatı artıq bunun üzərinə getməlidir. Sağ olun ki, belə bir məsələni gündəmə gətirirsiz. Biz də çalışırıq ki, ermənilərin nə yuvanın quşu olduğunu mətbuata çatdıraq”.



***İnam Hacıyev***

# “Ermənistan-İsrail yaxınlaşması İranla əməkdaşlığa ziyan vurur”

***“Ermənistan-İsrail əməkdaşlığının güclənməsi istiqamətində atılan addımlara, münasibətlərin yaxınlaşmasına rəsmi Tehranın mövqe bildirməyəcəyi mümkün deyildi. Çünki İran vaxtilə Ermənistanı konkret olaraq iflasdan xilas edib”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Sahil İsgəndərov deyib***



O bildirib ki, Ermənistanın İrana təşəkkür edəcəyini də gözləmək sadəlövhlük olardı: “İran çox gözəl bilir ki, Ermənistanın tarixən onların ərazilərinə iddiaları var. Ermənistan əgər Azərbaycan, Gürcüstan, Türkiyə və hətta Rusiyaya ərazi iddiası irəli sürübsə, İran bu kontekstdən kənarda qala bilməz”.

Politoloq söyləyib ki, rəsmi Tehran uzun illərdir ki, məhz Ermənistanı dəstəkləmək, onlara müəyyən yardımlar etməklə bir növ dünyaya çıxış almaq istəyirdi: “Artıq Ermənistanın İsrailə yaxınlaşması kontekstində İran narahat olmaya bilməz. Çünki İsrail İranın 2-3 düşmənlərindən biri olduğunu açıqlayıb. Belə bir vəziyyətdə Ermənistanın İsrailə istiqamətlənməsi bu ölkədə narahatlıq doğurmaya bilməz”.

Hazırki dövrdə Ermənistanın məhz İsrailə tərəf yaxınlaşmasının səbəblərini açıqlayan S. İsgəndərov vurğulayıb ki, dünyada gedən pandemiya proseslərinin ölkə iqtisadiyyatlarından da yan keçməyəcəyini anlayan Ermənistan dünyada nüfuz imkanlarına görə birinci olan yəhudi lobbisinin maliyyə imkanlarından istifadə etmək istəyir: “Digər məsələ qondarma erməni soyqırımının tanınması məsələsi ola bilər. Çünki hər kəsə məlumdur ki, yəhudi lobbisinin dünyada qondarma erməni soyqırımının tanınmasının qarşısının alınması istiqamətində fəaliyyəti böyükdür. Belə olan halda Ermənistan tərəfi İsraillə yaxınlaşmağa cəhd edir”.

Ekspert qeyd edib ki, bütün hallarda Ermənistanın müttəfiqi, qonşusu olan İranın siyasi probemlər yaşadığı İsraillə münasibətləri genişləndirilməsi riyakarlıqdır: “Ermənistan tarixən gizli oyunlar oyunmaqla, dostlarını maraqlarına qurban verən, ona buna yarınmaqla dividentlər qazanan ölkə olub. Hazırda Rusiyadan divident qazanmaq şansına malik olmayan işğalçı ölkə indi də İraillə yaxınlaşmaq fonunda nəsə əldə edəcəyinə ümid edir. Lakin bu addımlar İranla Ermənistan münasibətlərinə zərər verəcək”.

Politoloq əlavə edib ki, İsrail də çox yaxşı bilir ki, Ermənistanın Təl-Əvivlə yaxınlaşması onlara ziyan verə bilər: “Çünki digərlərinin xəncər sancan ölkədən yaxşı heç nə gözləmək olmaz”.

***Nailə Məhərrəmova***

# “İran bir növ Ermənistan üçün “nəfəslik” rolunu oynayıb”

“İran-Ermənistan münasibətlərinin xarakterini nəzərə alsaq, qeyd edə bilərik ki, Ermənistanın İsraillə son dövrlərdə əlaqələrini sıxlaşdırma cəhətləri İran tərəfindən heç də birmənalı qarşılanmır və qarşılanmayacaq da. Təbii ki, burada deyilə bilər ki, istənilən dövlət xarici əlaqələrini və yaxud da xarici siyasətinin prioritetlərini müəyyənləşdirməkdə müstəqildir. Amma nəzərə alsaq ki söhbət Ermənistan kimi riyakar, işğalçı bir dövlətdən gedir, o zaman ortaya ciddi suallar çıxır. Sözsüz ki, bu İran tərəfini narahat etməyə bilməz”. Bunu SİA-ya millət vəkili Elşad Mirbəşiroğlu deyib.



Deputatın sözlərinə görə, Ermənistan İsrail dövlətində özünün diplomatik nümayəndəliyini açdı: “Ermənistanla İsrail arasında münasibətlərin bu gün dinamikliyini müəyyənləşdirən amil rolunda əsasən Azərbaycan-İsrail münasibətləri çıxış edir. Bunu hansı mənada deyirəm. Bildiyiniz kimi Azərbaycan-İsrail münasibətləri kifayət qədər yüksək inkişaf səviyyəsinə çatmış münasibətlərdir. Hərbi-texniki sahəmizi də əhatə etməklə bir çox istiqamətlərdə Azərbaycanla İsrail arasında kifayət qədər sıx əməkdaşlıq mövcuddur. Ermənistan bu reallıqdan öncə narahatlığını nümayiş etdirib. Bildiyiniz kimi İsrailin Baş naziri iki dəfə Azərbaycanda səfərdə olub. Bir neçə il bundan öncə sonuncu səfər baş tutub. Həmin dövrdə də Ermənistan tərəfi çox ciddi narahatlıq keçirib və bu narahatlığını heç bir halda gizlədə bilmirdi. Ermənistan düşünür ki, Azərbaycan-İsrail münasibətləri bütövlükdə regionda hərbi, siyasi, eyni zamanda iqtisadi reallıqları müəyyənləşdirir və Azərbaycanın mövqelərini gücləndirir. Təbii ki, buna cavab olaraq Ermənistan tərəfi də İsraillə münasibətlərini inkişaf etdirməklə bir növ qeyd etdiyim məsələdə balans yaratmağa çalışır. Amma bu heç vaxt mümkün olmayacaq. Çünki Ermənistan tərəfinin təşəbbüsləri əsasında əsasən inkişaf edən münasibətlər Azərbaycan kimi potensiallı ölkə ilə inkişaf etdirilən münasibətlər fonunda heç bir halda güclü ola bilməz. Azərbaycanın bütün istiqamətlərdə kifayət qədər real və böyük potensialı mövcuddur. İsrail tərəfi bundan çıxış edərək Azərbaycan tərəfi ilə əməkdaşlığını inkişaf etdirir.

Diqqət yetirsək görərik ki, Azərbaycan-İsrail əməkdaşlığı Ermənistan-İsrail əməkdaşlığından fərqlənən əməkdaşlıqdır. Bələki Azərbaycan-İsrail münasibətləri hər iki tərəfin təşəbbüsləri əsasında formalaşmış və inkişaf etməkdə olan münasibətlərdir. Ermənistan-İsrail münasibətləri isə əsasən Ermənistanın təşəbbüsləri əsasında formalaşan münasibətlərdir. Bu baxımda hesab edirəm ki, Ermənistanın İsrailə son dövrlərdə artmaqda olan meyilliyi bir daha müəyyən edir ki, o öz tərəfdaşlarının maraqlarını nəzərə almır. Bələki Ermənistanın ayaqda qalmasında sirr deyilsə İranın çox böyük rolu olub. İran bir növ Ermənistan üçün müəyyən bir zaman kəsiyində hətta “oksigen balonu” rolunu da oynadı. Çünki Ermənistanın heç bir yerlə əlaqəsi yoxdur”.

## Əziz Cavanpur: “Ermənistan strateji cəhətdən itirəcək”

Artıq İranın rəsmiləri və tanınmış ictimai-siyasi xadimləri, politoloqları da belə qənaətə gəlməkdədirlər ki, əgər Ermənistan İsraillə diplomatik əlaqələr baxımından səfirlik açmaq niyyətini davam etdirərsə, bu qərar ermənilərə heç də yaxşı proqnozlar vəd etmir. SİA xarici mətbuata istinadən xəbər verir ki, İran İslam Respublikasının Azad iniversitetinin rəhbəri Əziz Cavanpura görə, Ermənistan bundan heç bir xeyir qazana bilməyəcək.

“Ermənistanın İsraillə münasibətlərindən heç bir nəzərəçarpan qazancı olmayacaq. Ancaq Ermənistanın itiricəyi bir şey var ki, o da strateji xarakter daşıyır”, deyən Cavanpur işarə edib ki, həmin strateji itki İranla olan münasibətlərin pozulmasıdır.

# “Müxalifətə sifariş verənlər Azərbaycan cəmiyyətinə yaxşı məlumdur”

***Azərbaycan Prezidenti Ilham Əliyev “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Sərəncam imzalayıb. Sərəncam dünyada koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin Ona ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq və humanizm prinsiplərinə əsaslanaraq imzalanıb. Sərəncam cəmiyyətdə alqışlarla qarşılanıb, humanist və xeyirxah addımına görə, Prezidentə təşəkkürlər ünvanlanıb. Ancaq maraqlıdır ki, xalqdan ayrı düşən müxalifət bu dəfə də, öz dəyişməz amplualarından çıxış edərək əfv fərmanını öz məkrli siyasi maraqlarından təhlil və şərhlər edirlər. Yəni müxalifət bu xoşməramlı, humanist, xeyirxah Sərəncama qarşı öz dayaz düşüncələri ilə münasibət bildirirlər. Söhbət etdiyimiz müsahiblərimiz müxalifin bu humanistliyə anormal formada münasibət bildirmələrinin onların sağlam düşüncəyə malik olmamaları ilə əlaqələndirdilər.***

### Müasir Müsavat partiyasının sədri Hafiz Hacıyev: “Müxalifət humanist qərara qərəzli yanaşmaqla cəmiyyətin növbəti nifrətini qazanmış olur “

- Cənab Prezident İlham Əliyevin 65 yaşı keçən məhkumların əfv olunması barədə Sərəncam imzalamasını yüksək qiymətləndirirəm. Ölkə Prezidenti kimliyindən və hansı cəza törətməsindən asılı olmayaraq böyük bir humanist addım atıb. Prezidentimizin bu humanist addımına xaricdən maddi və mənəvi dəstək alan müxalifətin qarayaxma kampaniyası aparması onların müstəqil olmamalarının əyani göstəricisidir. Müxalifət humanist qərara qərəzli yanaşmaqla cəmiyyətin növbəti nifrətini qazanmış olur. Nəzərə almaq lazımdır ki, ölkə Prezidentimiz əfv Sərəncamını imzalamaqla bir çox ailələri sevindirdi. Radikal müxalifət düşərgəsini təmsil edən şəxsləri Azərbaycan cəmiyyəti çox yaxşı tanıyır. Belə olan halda da, onların nə deməsindən asılı olmayaraq cəmiyyətimiz onların dediyi fikirlərə ciddi yanaşmır. Bu gün müxaliflər hansı fikir deyirlərsə, əlbəttə ki, o dedikləri fikirlər onların öz fikirləri deyil. Ölkədə nə isə xoşagəlməz bir vəziyyət yaratmaq istəyən, xaricidən idarə olunan qüvvələr var. Yəni ağa qara demək və görülən işlərə kölgə salmaq istəyən qüvvələr mövcuddur. Amma onların nə deməsindən və etməsindən asılı olmayaraq heç vaxtı onlar öz istəklərinə çatmayacaqdır.



### “Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov: “Müxalifətin bütün destruktiv fəaliyyəti sifarişlə həyata keçirilir”

- Əlbəttə, müxalifətin bütün destruktiv fəaliyyəti sifarişlə həyata keçirilir. Müxalifətə sifariş verənlər də Azərbaycan cəmiyyətinə yaxşı məlumdur. Məsələ burasındadır ki, həmin anti-Azərbaycan qüvvələr indiki iqtidarın cəmiyyətdə nüfuzdan düşməsi, xalqın dəstəyindən məhrum olması üçün bütün vasitələrdən istifadə edirlər. Baxın, “COVİD-19” virusu ilə bağlı Azərbaycan hakimiyyəti vaxtında qabaqlayıcı tədbirlərə əl atır, nəticədə virusun tüğyan etdiyi İranla həmsərhəd olan Azərbaycanda bu günə kimi onun geniş yayılmasının qarşısı alınıb və yəqin ki, bundan sonra da alınacaq. Halbuki, Azərbaycan xalqının ən çox gediş-gəliş etdiyi ölkə məhz İran İslam Respublikasıdır. Amma özünü müxalifət adlandıran həmin siyasət dəllalları bu tədbirləri, hakimiyyətin gördüyü işləri gözdən salmaq üçün dəridən-qabıqdan çıxır. Müxtəlif sahələrdəki itkiləri qarşılamaq, eyni zamanda, ehtiyaclı təbəqəyə maddi dəstək verilməsi üçün dövlət büdcəsindən milyardlarla manat vəsait ayrılır. Müxaliflər çalışırlar əhalini başqa səmtə yönəltsinlər. Yəni, iqtidarın xalqın mənafeyi və dövlətin inkişafı naminə atdığı bütün addımlar həmin qüvvələr tərəfindən yanlış istiqamətdə izah edilir. Biz hər zaman bunun şahidi olmuşuq, təəssüf ki,



dünyanın taunla savaşdığı indiki vaxtda da şahidi oluruq. Hesab edirəm ki, onlar bununla özləri haqqında elə mənfi imicin formalaşmasına şərait yaradırlar ki, post-koronovirus dövründə də xalq onlara nifrətini gizlətməyəcək. Çünki dost çətin məqamda sınanar deyiblər. Azərbaycan hakimiyyəti bu çətin sınaq dövründə həqiqətən xalqın dostu olduğunu bir daha əməli olaraq sübut etdi. Eyni zamanda da, insanlar özünü siyasi müxalifət kimi qələmə verməyə çalışan həmin qüvvələrin xalqa heç bir dəstək verməməsini, əksinə iyrənc çıxışları ilə xalqı çaşdırmaq cəhdlərinin şahidi oldu. Bu da gələcək illər üçün indiki hakimiyyətə inamı artırmış oldu.

***GÜLYANƏ***

# “Milli Şura”nın aşkar həyasızlığı nəyə əsaslanıb?

## *Və ya onların bulaşdıqları virus siyasi ölümlərini daha da sürətləndirir*

***“Milli Şura”nın hay-küyçü “liderləri”nin zaman-zaman yalnız öz şəxsi mənfəətlərinə hesablanmış fikir və ifadələri heç bir məntiqə sığmayıb və söz yox ki, belə addımlar onları daxillərindəki xainlik sindromlarını daha çox aşkara çıxarmış olur. Xüsusilə, belə bir dövrdə - dövlətin koronavirusla mübarizədə bir sıra və ardıcıl, önəmli addımlar atması faktı ətrafında düşərgə təmsilçilərinin var-gəlləri heç bir məntiqə sığmır.***

Xalqımızın həmrəyliyinə, bir-birinə dəstəyinə belə qısqanclıqla yanaşan Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Qənimət Zahid çetesi, yaxud siyasi bandası və onların xaricdəki havadarları sadəcə və sadəcə erməni dəyirmanına su tökmələ məşğuldurlar. Xüsusilə, “Milli Şura”nın Azərbaycan hakimiyyətini koronavirus pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkəmizdə tətbiq olunan ciddi karantin rejimindən siyasi maraqları üçün istifadə etməsi ətrafındakı sərsəm iddiaları ümumiyyətlə, ictimai rəydə onlara qarşı istehza yaradıb.



### Siyasi banda təmsilçiləri hazırkı məqamda qazanc mənbələri erməni lobbisinin dəstəyi ilə fəaliyyət göstərən xarici təşkilatlarının ciblərində axtarırlar

Bu fakt isə əslində sübut edir ki, Prezident İlham Əliyev hələ Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edərkən, özünü radikal müxalifət adlandıran bu xainlər çetesinin fəaliyyəti ilə bağlı proqnozlarında tam haqlı olub, onların iç üzünü ifşa edib. Söz yox ki, bu məsələdə bir sıra xarici təşkilatlardan sifariş alaraq, onlara nökərçilik etmələri faktı da mövcuddur. Daha dəqiq desək, Azərbaycandakı “beşinci kalon” həmin sifarişlərini bənzər “bəyanatları” ilə icra etməkdədirlər. Əbəs deyil ki, ölkə başçısı tərəfindən imzalanan əfv Sərəncamından sonra da, yəni 65 yaş və üzərində olan məhbusların azadlığa buraxılmaları kimi humanizm addımının ardınca da, həmin ünsürlər bar-bar bağıraraq, özlərinə sərf edən qara-qışqırıqlarını ətrafa yaymağa cəhdlər göstərdilər. Yəqin ki, 5-10 avroya və dollara görə hər şeylərini satmağa hazır olan bu siyasi banda təmsilçiləri hazırkı məqamda qazanc mənbələri erməni lobbisinin dəstəyi ilə fəaliyyət göstərən xarici təşkilatlarının ciblərində axtarırlar.

Lakin əlbəttə ki, Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt anti-Azərbaycan qüvvələrə, “beşinci kalon” təmsilçilərinə vəziyyətdən istifadə edib hansısa təxribat törətməyə heç vaxt imkan verməyib, bundan sonra da verməyəcək. Necə ki, “Milli Şura” çetesinin bu addımları da bir daha belə bir çətin dövrdə radikal ünsürlərin Azərbaycan xalqı ilə ayrı düşüncədə olmasından xəbər verir. Belə düşüncə isə, daha betər virus hesab edilə bilər. Həmin viruslu düşüncələr isə onların siyasi ölümlərini daha da sürətləndirir.

***Rövşən RƏSULOV***



# Paytaxtda müvafiq icazə olmadan hərəkət edənlər cərimələnirlər

Daxili İşlər Nazirliyinin əməkdaşları koronavirusun geniş yayılmasının qarşısının alınması ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlər çərçivəsində insanların fərdi evlərində və mənzillərində, daimi və ya müvəqqəti yaşadıqları (olduqları) yerlərdə qalmalarını tələb edirlər.

Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları paytaxtda müvafiq icazə olmadan hərəkət edən şəxsləri, eləcə də nəqliyyat vasitələrinin sürücülərini və sərnişinləri yoxlayırlar. Müvafiq icazəsi olmayan şəxslər müəyyən olunaraq, barələrində qanunvericiliyə uyğun tədbirlər davam etdirilir.

İnsanların bir-biri ilə yaxın əlaqələrini minimuma endirmək, bununla da infeksiyaya yoluxmanın sürətini azaltmaq məqsədilə ölkə ərazisindəki xüsusi rejim müddəti martın 31-dən aprelin 20-dək gücləndirilib. İnsanların fərdi evlərindən və mənzillərindən çıxışına yalnız təxirəsalınmaz tibbi yardıma zərurət olduqda, həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda, fəaliyyətinə icazə verilən pərakəndə satış və əhaliyə xidmət göstərən obyektlərə gedildikdə, məişət tullantılarının atılması hallarında, eləcə də xüsusi rejim dövründə fəaliyyət göstərən təşkilatlarda xidməti vəzifələrini icra etmək məqsədilə icazə verilir. Pandemiya şəraitində vətəndaşlar təmkin və anlayış göstərməyə, karantin tədbirlərinə dəstək olmaq məqsədilə özünütəcrid qaydalarına riayət etməyə çağırılır.

# İran Ermənistanı öz "dəftərindən" silməli olacaq

## İşğalçı ölkənin İsraildə səfirlik açmaq marağı onun məhvinə səbəb olacaq

**_Sirr deyil ki, Ermənistanın işğalçılıq siyasəti onun bir sıra mühüm regional təcridi ilə nəticələnib. Lakin o da gizlin deyil ki, bu ölkənin yeganə nəfəs borusu qonşusu İran İslam Respublikasıdır. Məhz İranla mövcud olan əlaqələr Ermənistanın uzun illərdir ki, yaşamaq imkanına səbəb olur. Əks halda, bu ölkənin ümumiyyətlə xəritədən silinməsi an məsələsi ola bilərdi. İranın iqtisadi, sosial və s. cəhətlərdən Ermənistana yardımlar etməsi, enerji təminatı məsələsində hətta güzəştlərə getməsi də məhz bu xüsusdadır._**

### Mnatsakyanın "regionda maraqların qorunması" ifadəsi sadəcə söz xətrinə deyişmiş kəlmə kimi anlaşılmalıdır



Bu dəfə deyəsən belə qalmayacaq. Çünki işğalçılıq və təcavüzkarlıq siyasəti ilə tanınan Ermənistan tərəfi son vaxtlar İran dövlətinin özünə düşmən elan etdiyi İsraillə münasibətlərini dərinləşdirmək, Tel-Əvivdə səfirliyini açmaq niyyətini açıqlayıb. Daha dəqiq desək, Ermənistan hökumətinin keçən il aldığı qərara əsasən, 2020-ci ilin birinci yarısında Ermənistan Respublikasının Təl-Əviv şəhərində diplomatik korpusunun açılması planlaşdırılır. Buna misal olaraq, Ermənistan xarici işlər naziri Zoqrab Mnatsakanyanın bəyanatını xatırlamaq olar. Belə ki, erməni xarici işlər idarəsinin rəhbərinin sözlərinə görə, səfirliyin açılması ikitərəfli əlaqələrin genişləndirilməsinə və regionda Ermənistanın maraqlarının qorunmasına töhvə verəcək və s. Burada sual yaranır - "Regionda maraqların qorunması" deyərkən, erməni nazir burada hansı məqamı nəzərdə tutur? Çünki başda BMT olmaqla, bir sıra nüfuzlu beynəlxalq ictimai-siyasi qurumlar, təşkilatlar bu ölkənin Azərbaycana qarşı işğalçılıq siyasəti apardığını bəyan edib və eyni zamanda, həmin siyasətin regiona kifayət qədər ciddi mənfi təsirlər göstərdiyi vurğulanıb. Əgər qəbul edilən qətnamələri də buraya əlavə edərsək, onda Mnatsakyanın "regionda maraqların qorunması" ifadəsi sadəcə söz xətrinə deyişmiş kəlmə kimi anlaşılmalıdır. Yəni bu fikir ümumiyyətlə, Ermənistanın işğalçılıq siyasətini arxa plana çəkmir.

### Həm İran İslam Respublikası ilə mövcud strateji tərəfdaşlığı qorumaq, həm də İsrail ilə geniş çərçivədə müstəqil oyunçu olaraq münasibətləri inkişaf etdirmək mümkün deyil

Buna da rəğmən, Ermənistanın İsrail ilə yaxınlaşma siyasətinin İran İslam Respublikası tərəfindən xoş qarşılanmayacağı şübhə doğurmurdu. Artıq rəsmi Tehran məsələyə reaksiya bildirib. Mart ayının 15-də İran İslam Respublikası Parlamentinin rəhbərinin Beynəlxalq Məsələlər üzrə xüsusi köməkçisi olan Hüseyn Əmirabdullahian Ermənistanı sərt tənqid edib. Onun sözlərinə görə, Ermənistanın Təl-Əvivdə diplomatik nümayəndəlik açması təəccüb doğurur və bu addım regionun təhlükəsizliyinə mənfi təsir edəcək. Çıxışının sonunda isə, o, Ermənistan dövlətinin verdiyi qərara yenidən baxacağına ümid etdiyini bildirib.

Geosiyasi reallıq və siyasi tarix Ermənistan-İran münasibətlərinin hər zaman rəsmi Yerevan üçün strateji əhəmiyyət daşıdığını göstərir. Çünki, Ermənistanın regional yerləşməsi və işğalçı siyasəti təcridlə nəticələnib ki, nəticədə, İran İslam Respublikasının etdiyi yardımlar Ermənistan dövlətinin varlığını davam etməsində mühüm rol oynayıb. Müstəqillik illərindən bu günədək yüksələn xətt üzrə inkişaf edən münasibətlər məhz, İran İslam Respublikasının yürütdüyü mehriban qonşuluq siyasəti nəticəsində reallaşıb. Ermənistanın İran İslam Respublikası ilə müxtəlif sahələri (ticarət, enerji və s.) əhatə edən geniş əməkdaşlıqdan böyük qazanclar əldə edib və bu proses davam etməkdədir. Lakin, Ermənistan dövlətinin həyati müttəfiq hesab etdiyi qonşusunun siyasi problemlər yaşadığı bir ölkə olan İsrail dövləti ilə münasibətləri genişləndirmək istəyi, siyasi ikiüzlülük və riyakarlıqdır. Bir sözlə, həm İran İslam Respublikası ilə mövcud strateji tərəfdaşlığı qorumaq, həm də İsrail ilə geniş çərçivədə müstəqil oyunçu olaraq münasibətləri inkişaf etdirmək mümkün deyil. Sözün qısası, artıq tam əminliklə nəticə çıxarmaq olar ki, İran Ermənistanın bu xəyanətkar addımına qarşı kifayət qədər kəskin və adekvat cavab verəcək, hətta bu, münasibətlərin birtərəfli qaydada pozulmasına qədər də inkişaf edə bilər. Daha doğrusu, İran Ermənistanı öz "dəftərindən" silməli olacaq.

***Rövşən RƏSULOV***

# Müxalifət iqtidarla dialoqa maraqlıdır

## Yaxud koronavirus təhlükəsindən sonra siyasi düşərgədə nələr gözlənilir?

**_Dünyada koronavorus tüğyanının baş qaldırması ölkələrin daxili siyasi gündəmlərinə də müəyyən təsirlərini göstərir. Ancaq buna baxmayaraq, həyat davam edir və infeksiya təhlükəsi, eləcə də karantin rejimi başa çatdıqdan sonra hər şey necə deyərlər, öz yoluna qoyulacaq. Söz yox ki, mövcud vəziyyət müxalifət düşərgəsinə də öz təsirlərini göstərib. Radikal müxalifət düşərgəsinin "liderləri" ölkədə aparılan önləyici tədbirlərə və s. xalqın rifahına yönəlmiş addımlara barmaqrarası baxmaqla onsuz da öz daxillərindəki virusların açıq-aşkar sərgiləmiş olurlar. Ancaq onlardan fərqli olaraq, konsturktivlik müxalifət partiyaları gələcək fəaliyyətlərinə ümidlə baxırlar. Misal üçün iqtidarla dialoq mühitinin bərpasında maraqlı olduqlarını nümayiş etdirirlər. Çünki mövcud vəziyyətə qədər artıq həmin prosesə start verilmişdi._**



### AXP sədri Pənah Hüseyn: "Siyasi partiyalar da fəaliyyətlərində müəyyən məhdudiyyətlər qoyublar"

Məsələn, AXP sədri Pənah Hüseyn mətbuata açıqlamasında bildirib ki, başlanan prosesə koronovirusla bağlı qoyulan yasaqlar istər-istəməz öz təsirini göstərib. "Siyasi partiyalar da fəaliyyətlərində müəyyən məhdudiyyətlər qoyublar. Eyni zamanda "evdə qal" çağırışlarına əməl edilir" deyən AXP sədri bildirib ki, məhz bu səbəblərdən karantin dövründə iqtidar təmsilçiləri ilə müxalifət yönümlü siyasi partiyaların sədrlərinin görüşünün olması hazırda gündəmdə deyil.

### ADP sədri Sərdar Cəlaloğlu: "Karantin başa çatdıqdan sonar bu görüşlər davam edəcək"

ADP sədri Sərdar Cəlaloğluya görə isə bəlli təhlükəyə görə küçəyə çıxmaq qadağalarının gündəmdə olduğu vaxtda görüşlərin olması gözlənilmir. "Hesab edirəm ki, xalqın sağlamlığı, ölkə üçün taleyüklü məsələlərin önə çıxması halında siyasi qüvvələr arasında görüşlər, siyasi fəaliyyət kimi məsələlər arxa plana keçməlidir" deyən müxalifət partiyasının sədri onu da xatırladıb ki, təkcə Azərbaycanda deyil, əksər dünya ölkələrində də belədir-digər bütün siyasi, ictimai tədbirlər dayandırılıb, hətta konfliktlər, ən müqəddəs dini ayinlərin icrası belə dayandırılıb: "Fövqəladə vəziyyətdir. Belə vəziyyətdə yəqin ki, iqtidar-müxalifət görüşü də hələ ki, reallaşmayacaq. Lakin bu, bir müddət öncə başlanan prosesin dayandığı hesab olunmamalıdır. Hesab edirəm ki, karantin başa çatdıqdan sonar bu görüşlər davam edəcək".

Göründüyü kimi, düşərgənin loyal təmsilçiləri iqtidarla dialoqda maraqlı olduqları qədər həm də siyasi islahatların reallaşdırılması faktoruna da dəstək göstərdiklərini gizlətmirlər. Hər halda, irəliyə sürülən fikirlər də bu amili kifayət qədər ehtiva etməkdədir.

***Rövşən Rəsulov***

# Bakıda saxta arayışlar satan şəxslər tutulub

**_Koronavirus pandemiyası ilə mübarizədə əhalinin sağlamlığının qorunması məqsədilə ölkə ərazisində elan edilmiş xüsusi karantin rejiminin müxtəlif yollarla pozulması hallarına hələ də rast gəlinməkdədir. Bu kimi neqativ halların qarşısının alınması məqsədilə Daxili İşlər Nazirliyi və Respublika Baş Prokurorluğunun əməkdaşları tərəfindən birgə tədbirlər davam etdirilir._**

Daxili İşlər Nazirliyi və Respublika Baş Prokurorluğunun mətbuat xidmətlərindən AZƏRTAC-a daxil olan birgə məlumatda bildirilir ki, daxil olan əməliyyat məlumatı əsasında keçirilən tədbir zamanı paytaxt sakinləri Anar İsgəndərov və Aslan Bayramov "Sağlam Həyat Naminə", eləcə də "Siyasət və Gerçək Uğur" jurnallarının möhürü ilə təsdiqlənmiş saxta arayışları satarkən saxlanılıblar.

Araşdırma zamanı müəyyən olunub ki, A.İsgəndərov və A.Bayramov xüsusi karantin rejimi dövründə kütləvi informasiya vasitələrinin əməkdaşlarının fəaliyyətlərini sərbəst şəkildə davam etdirməsinə müvafiq icazənin verilməsi qaydasından sui-istifadə edərək sərbəst hərəkətləri məhdudlaşdırılan şəxslərə guya qeyd edilən jurnalların əməkdaşları olmaları barədə saxta arayışlar satıblar. Bununla da A.İsgəndərov və A.Bayramov saxta sənəd satdıqları şəxslərin xüsusi karantin qaydalarının tələblərini pozaraq sərbəst hərəkət etməsinə şərait yaradıblar.





Faktla bağlı Cinayət Məcəlləsinin 320-ci (Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) və 139-1.1-ci (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddələri ilə cinayət işi başlanılıb. Qeyd olunan cinayət əməllərini törətməkdə şübhəli bilinən A.İsgəndərov və A.Bayramov tutularaq istintaqa cəlb olunublar. Onlardan xeyli sayda saxta arayışlar, boş blanklar və möhür açkar olunaraq götürülüb. Hazırda cinayət işi üzrə zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Baş Prokurorluq və Daxili İşlər Nazirliyi bir daha vətəndaşlardan koronavirus pandemiyası ilə mübarizədə ölkə ərazisində elan edilən xüsusi karantin rejiminə əməl etməyi tələb edir. Əks halda qaydaları pozan şəxslərə qarşı qanunvericilikdə nəzərdə tutulan qaydada ciddi cəza tədbirləri görüləcək.

# Hərbi əsirlərin şəxsiyyətinə hörmət edilməsi hüququ

***Hərbi əsirlər öz şəxsiyyətinə və şərəfinə hörmət edilməsi hüququna malikdirlər. Qadınlarla onların cinsi nəzərə alınmaqla rəftar: edilməli və bütün hallarda onlar kişilər üçün yaradılmış şəraitdən az əlverişli olmayan şəraitlə təmin edilməlidir. Hərbi əsirlər əsir düşdükləri vaxt malik olduqları mülki hüquq qabiliyyətini tamamilə saxlayırlar. Əsirlikdə saxlayan dövlət bu hüquqların həyata keçirilməsini yalnız əsirlik şəraitinin tələb etdiyi dərəcədə məhdudlaşdıra bilər.***

Əsirlikdə saxlayan dövlət hərbi əsirlərin saxlanılması və onların sağlamlıq vəziyyətinin tələb etdiyi yardımı pulsuz təmin etməlidir. Hərbi əsirlərin sağlamlığı və tibbi xidmətlə əlaqədar əsirlikdə saxlayan dövlət aşağıdakı vəzifələri yerinə yetirməlidir:

- hərbi əsirlərlə humanitar rəftar olunmalı və onların sağlamlığı təhlükəyə məruz qoyulmamalıdır;
- düşərgədə epidemiya yaranmasının qarşısının alınması məqsədilə təmizliyi qorumaq və sağlam şəraitin təmin olunması üçün zəruri tədbirlər görülməlidir;
- hərbi əsirlərə müvafiq yemək verilməli və tibbi xidmət göstərilməlidir;
- hərbi əsirlərin sağlamlıqlarının lazımi səviyyəsinin qorunması üçün onlar zəruri vasitələrlə, məsələn eynək, diş və digər protezlərlə, pulsuz təchiz olunmalıdır;
- sağlamlığı xüsusi müalicə və tibbi xidmət tələb edən hərbi əsirlər ixtisaslaşmış tibbi müəssisələrə göndərilməlidir;
- hərbi əsirlərin tibbi heyətin qəbuluna düşməsinə maneçilik göstərilməməlidir;
- ayda bir dəfədən az olmayaraq hərbi əsirlər müayinədən keçirilməlidir;
- məcburi əməyə cəlb edilmiş hərbi əsirlərin işə yararlığı yoxlanılmalı və yararsızlar məcburi əməkdən azad edilməlidir.

Azərbaycan Respublikası Milli Məclisinin 28 oktyabr 1999-cu ildə qəbul etdiyi “İnsan orqan və (və ya) toxumalanhm transplantasiyası haqqında” Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinin 4-cü hissəsinə əsasən “resipiyentin qulluq tabeliyində və ondan fiziki, mənəvi, maddi cəhətdən asılı olan və ya həbsdə olan şəxslərdən, hərbi əsirlərdən və ya ruhi xəstələrdən transplantasiya məqsədilə orqan və (və ya) toxumalann götürülməsi yolverilməzdir”. “Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında” qanunda hərbi əsirlərin hüquqlan da öz əksini tapmışdır. Qanunun 22 maddəsinə əsasən hərbi əsirlərin aşağıdakı hüquqları vardır:

1) humanist rəftar, şəxsiyyət və şərəfinə hörmət (qadınlara, yetkinlik yaşına çatmayanlara xüsusilə hörmət edilir və onlar yaramaz qəsdlərdən qorunur) ;

2) əsir tutulana qədər malik olduqları mülki-hüquq qabiliyyətini saxlamaq;

3) öz ölkəsinin qanunlanna uyğun olaraq, lakin əsirlik şəraitinin tələb etdiyi məhdudiyyətlərlə vətəndaş hüquqlarından istifadəni davam etdirmək;

4) yalnız quruda yerləşən və təhlükəsizlik, gigiyena və sağlamlığın qorunması baxımından təminat verən binalarda saxlanmaq;

5) zəruri tibbi yardım, qida, paltar, habelə qohumla yazışmaq imkanı almaq (bilavasitə qarşı tərəf və mübadilə məntəqələri vasitəsilə, yaxud hami dövlətlər və ya onlann substitutu-Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə) öz vərdişlərinə milli adətlərə və dini mərasimlərə riayət etmək, habelə kənardan maddi yardım almaq;

6) onları hakimiyyət orqanları qarşısında təmsil etməli olan vəkillərini hər altı aydan bir sərbəst surətdə gizli səsvermə yolu ilə seçmək (hərbi əsir olan zabitlər istisna təşkil edir; onların təmsilçisi hərbi rütbəcə daha böyük olan əsir zabitdir). III Cenevrə Konvensiyası əsirliyin başlanmasından başa çatmasına kimi hərbi əsirlərin hüquqi vəziyyətini tənzimləyir. Hərbi əsirlik bir qayda olaraq düşmən əlinə düşmüş şəxsin dindirilməsi ilə başlanır. Hərbi əsirlər onların başa düşdüyü dildə dindirilməlidirlər. Hərbi əsir dindirildikdə, yalnız öz soyadını, adını və rütbəsini, doğum tarixini, ordu, əsgəri və şəxsi nömrəsini, bunlar olmadıqda isə buna bərabər digər məlumatı verməyə borcludur. Hərbi əsirlər həmin məlumatlar qeyd olunan şəxsiyyət vəsiqəsi ilə təmin olunurlar. Hərbi əsirlərdən hər hansı məlumatın alınması üçün onlara qarşı heç bir fiziki və mə'nəvi işgəncə və heç bir məcburiyyət tədbiri tətbiq edilə bilməz. Cavab verməkdən imtina edən hərbi əsirləri hədələmək, təhqir etmək və ya hər hansı təqibə və ya məhdudiyyətə məruz qoymaq olmaz. “Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlannm qorunması haqqında” Qanuna əsasən Azərbaycan Respublikasımn Silahlı Qüvvələri və müvafiq dövlət hakimiyyəti və idarəetmə orqanlan qarşı tərəfin bütün hərbi əsirlərinin soyadlan, adları, rütbələri, təvəllüd tarixləri və yerləri, daimi yaşayış ünvanlan göstərilməklə qeydiyyata alınmasını təmin edirlər.

Şəxsi istifadədə olan bütün əşyalar və predmetlər, eləcə də metal dəbilqələr, əleyhqazlar və şəxsi müdafiə üçün hərbi əsirlərə verilmiş bu cür predmetlər onların ixtiyarında qalmalıdır. Geyim və qida əşyaları və predmetləri hərbi ləvazimata aid olsalar belə, əsirlərin ixtiyannda qalmalıdır. Hərbi əsirlərdən rütbəni və dövlət mənsubiyyətini göstərən nişanlar, fərqləndirici nişanlar və şəxsi dəyərə malik olan əşyalar alına bilməz. Əsir alındıqdan sonra mümkün qədər qısa müddətdə hərbi əsirlər onların təhlükəsizliyinin təmin edilməsi üçün hərbi əməliyyatlar zonasından kifayət qədər uzaqda yerləşən düşərgəyə köçürülməlidirlər.

Dövlət hərbi əsirləri tərksilah edib xüsusi yerdlərdə nəzarət altında saxlaya bilər. “Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında” Qanunun 19-cu maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələri və müvafiq dövlət hakimiyyəti və idarəetmə orqanları Azərbaycan Respublikası ərazisində hərbi əsirlərin hərbi əməliyyatlar zonasında, ayrı-ayrı vətəndaşların yanında və hərbi hissələrdə saxlanılmasına yol vermir. Hərbi əsirlər beynəlxalq hüququn tələblərinə uyğun olaraq bu məqsədlərdən ötrü xüsusi aynimış düşərgələrdə saxlanılır.

Əsirlikdə hərbi əsirlər yalnız quruda yerləşən və bütün gigiyena və sağlamlıq tə'minatlanna cavab verən yerdə yerləşdirilməlidir. Əsirlərin maraqlarına uyğun olan xüsusi hallardan başqa onlar həbsxanalarda saxlanıla bilməzlər. Hərbi əsirlər düşərgədə onların milliyyəti, dili və adətləri nəzərə alınmaqla yerləşdirilir. Heç bir hərbi əsir heç vaxt döyüş zonasmdan atəşə məruz qala biləcək əraziyə göndərilə və ya orada saxlanıla bilməz, həmçinin onun iştirakından müəyyən məntəqələrin və ya ərazilərin hərbi əməliyyatlardan müdafiəsi üçün istifadə edilə bilməz. Hərbi əsirlər yerli mülki əhali ilə eyni dərəcədə hava hücumundan və digər müharibə təhlükəsindən müdafiə üçün sığınacaqlara malik olmalıdırlar. Hərbi əsirlərin düşərgələrdə yerləşdirilməsi şərtləri əsirlikdə saxlayan dövlətin həmin ərazidə yerləşdirilmiş silahlı qüvvələrinin malik olduqları şərtlərdən az əlverişli olmamalıdır. Kişilərlə yanaşı qadın hərbi əsirlərin də yerləşdiyi düşərgələrdə onlar üçün ayrıca yataq otaqlan təmin olunmalıdır. Qida rasionu kəmiyyət, keyfiyyət və çeşid baxımından elə təşkil olunmalıdır ki, o hərbi əsirlərin səhhətini yaxşı saxlaya bilsin və qida azlığı üzündən çəki itirməsi hallarına gətirib çıxarmasın. Hərbi əsirlərin adət etdiyi qida rejimi də nəzərə alınmalıdır. Hərbi əsirlərə kifayət qədər içməli su və tütün çəkilməsinə icazə verilməlidir. Qidalanma ilə bağlı kollektiv intizam tənbehi tədbirləri qadağan edilir. Hərbi əsirlər zəruri geyim, alt paltarı və ayaqqabı ilə təmin olunmalıdırlar. Bütün düşərgələrdə hərbi əsirlərin yerli ticarət qiymətlərindən yüksək olmayan qiymətə satılan ərzaq məhsulları, gündəlik tələbat malları, sabun, tütün ala bilməsi üçün dükanlar təşkil edilməlidir. Hərbi hakimiyyət orqanlarının müəyyən etdikləri intizam qaydalarına riayət etmək şərtilə, hərbi əsirlər dini ayinlərini icra etməkdə, o cümlədən ibadətgahlara gedib-gəlməkdə sərbəstdirlər. Dini ibadətlərin həyata keçirilməsi üçün əlverişli yerlər təşkil edilməlidir. Hər bir hərbi əsir düşərgəsi əsirlikdə saxlayan dövlətin nizami silahlı qüvvələrinin məsul zabitinə tabe edilməlidir. Zabitlər istisna olmaqla, hərbi əsirlər əsirlikdə saxlayan dövlətin bütün zabitlərinə öz ordularının izamnamələrində nəzərdə tutulan rəsmi təzim etməyə və digər zəruri örmət əlamətləri göstərməyə borcludurlar. Zabit hərbi əsirlər yalnız əsirlikdə saxlayan dövlətin rütbəcə yüksək olan zabitlərinə rəsmi təzim etməyə borcludurlar. Lakin onlar düşərgənin rəisinə rütbəsindən asılı olmayaraq rəsmi təzim etməlidirlər. Hərbi əsirlərə qarşı, xüsusən əsirlikdən qaçanlara və ya qaçmağa cəhd göstərənlərə qarşı silah işlədilməsi fövqəladə tədbir hesab olunur və bundan əvvəl həmişə şəraitə uyğun xəbərdarlıq edilməlidir. Əsirlikdə saxlayan dövlət yaşını, cinsini, rütbəsini və fiziki imkanlarını nəzərə almaqla, hərbi əsirlərdən, xüsusən onları yaxşı fiziki və mənəvi vəziyyətdə saxlamaq üçün işçi qüvvəsi kimi istifadə edə bilər. Əgər zabitlər və ya onlara bərabər tutulan şəxslər onlara münasib iş verilməsini xahiş edirlərsə, onlara imkan daxilində bu cür iş verilməlidir, lakin heç bir halda onlar işləməyə məcbur edilə bilməzlər. Hərbi əsirlər öz düşərgələrinin idarə olunması, təchiz edilməsi və lazımi qaydada saxlanılması işlərindən başqa məcburi olaraq yalnız aşağıdakı kateqoriyalara aid işlərə cəlb oluna bilərlər:

**1)** kənd təsərrüfatı;

**2)** metallurgiya, maşınqayırma və kimya sənayesi istisna olmaqla, sənayenin hasilat və ya emal sahələri;

**3)** hərbi xarakter və ya məqsəd daşımayan ictimai işlər və ya inşaat işləri;

**4)** hərbi xarakter və ya məqsəd daşımayan nəqliyyat və ya yükləmə-boşaltma işləri;

**5)** ticarət fəaliyyəti, incəsənət və sənətkarlıq;

**6)** ev təsərrüfatı işləri;

**7)** hərbi xarakter və ya məqsəd daşımayan ictimai - kommunal xidmətlər.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# “Beşinci kalon” koronavirusdan bəhrələnə bilmir

## Sosial şəbəkələrə üz tutan nəzarətsiz ünsürlər bura da şər-böhtanlarını genişləndirirlər

***Yeni növ koronavirus (COVID-19) infeksiyası pandemiya elan olunduqdan sonra dünya dövlətləri bu virusa qarşı daha sərt mübarizə tədbirləri görməyə başladılar. Əməli fəaliyyəti ilə hər bir vətəndaşının yanında olan Azərbaycan dövləti virusa qarşı mübarizəyə çox operativ qoşuldu. Cidd karantin rejiminin tətbiqi, dezinfeksiya işlərinin aparılması, əhalinin maarifləndirilməsi və bunun fonunda insanların sosial müdafiəsinin təmin olunması nəticəsində ölkəmizdə infeksiyanın yayılma sürəti digər ölkələrlə müqayisədə daha azdır. Bu isə onu bir daha təsdiq edir ki, ölkəmizdə insanların sağlamlığı və təhlükəsizliyi başlıca amildir. Yəni insan sağlamlığını heç bir maddi və mənəvi tələbat üstələyə bilməz.***




Diqqətçəkən məqam ondan ibarətdir ki, ölkəmizdə koronavirusa mübarizə tədbirləri əhalinin maraq və mənafeynə uyğun şəkildə aparıldığı bir məqamda xalqdan ayrı düşən dağıdıcı müxalifət və “beşinci kolon”un tör-töküntüdən ibarət olan ünsürləri üz veriblər sosial şəbəkələrə. Nəzarətsizlikdən istifadə edən bu başıpozuq ünsürlər sosial şəbəkələrdə ağıllarına gələni yazır, paylaşmalar edirlər. Bir-neçəsi virusun ABŞ və İsrail tərəfindən, digərləri isə Rusiya və Çin tərəfindən yayıldığını yazır və öz aralarında rəyləri ilə müzakirələrə çevirirlər. Hətta dedi-qodu edən məxluqlar virusun bioloji silah olduğunu qeyd edirlər. İsrail parlamentinin üzvü Orli Levi-Abukasisın adından çıxış edərək yazırlar ki, guya parlamentin üzvü koronavirusun bioloji silah olduğunu söyləyib. İsrailli deputatın sözlərinə görə, koronavirus heyvandan insana ötürülən xəstəlik deyil. O əvvəlcədən hazırlanmış və testdən keçirilmiş bioloji məhsuldur.

### Müxalifət bu dövrdə gərəksiz qüvvəyə çevrilib

Sosial şəbəkələrdə AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı, “Milli Şura”-nın rəhbəri Cəmil Həsənli və “beşinci kalon”unun bədxah ünsürləri heç bir etika qaydalarına və prinsiplərinə sığmayan şərhləri, statusları ilə cəmiyyətin diqqətini özlərinə cəlb etməyə çalışırlar. Bununlada həm də, nümayiş etdirirlər ki, koronovirus epidemiyasının pandemiya elan edilməsindən sonra gərəksiz və əhəmiyyətsiz məxluqlara çevriliblər. Sosial şəbəkələr də dezinformasiya xarakterli informasiyalar yaymaqla xarici maraqlı dairələrin diqqət mərkəzində qalmağa ümid bəsləyirlər. Ancaq dünyanın başı koronavirus epidemiyasına qarşı mübarizəyə qarışdığından Azərbaycan müxalifətinin və onlarla eyni ağılda olan “beşinci kalon” üzvlərinin nə danışmalarına və sosial şəbəkələrdə paylaşmalarına əhəmiyyətsiz yanaşırlar. Milli Məclisin deputatı Şahin İsmayılov bildirib ki, nə qədər tragikomik olsa da, “beşinci kalon” üçün budəfəki mövzu koronavirus pandemiyasıdır. Koronavirus mövzusu artıq Azərbaycanın sistemsiz radikal müxalifətinin əsas lideri adını alıb desək yəqin ki, yanılmarıq. Millət vəkili qeyd edib ki, koronavirus pandemiyasının dünyada tüğyan etdiyi bir vaxtda dövlətlər daha effektiv həll yolları axtarır, müxtəlif proqramlar qəbul və icra edirlər: “O cümlədən ölkəmiz də qlobal pandemiyanın fəsadlarının azaldılması və ən əsası, əhalinin sağlamlığının qorunması üçün kifayət qədər səmərəli tədbirlər həyata keçirir. Bu məsələ Prezident İlham Əliyevin ciddi nəzarəti altındadır. Dövlətimizin başçısı ölkə əhalisinin sağlamlığının qorunması, iqtisadi sabitliyin pozulmaması üçün lazımi addımlar atır. Əfsuslar olsun ki, birlik və həmrəyliyin çox vacib olduğu hazırkı zamanda ölkəmizdə müəyyən qüvvələr pozuculuq fəaliyyəti ilə məşğul olur, qeyri-sabitliyə çalışırlar”.

Ş.İsmayılov onu da bildirib ki, radikal müxalifət ölkədəki vəziyyəti gərginləşdirmək üçün pandemiya mövzusunu siyasi qeyri-sabitliyə çevirməyə çalışır: “”Beşinci kalon” koronavirusu özü üçün xoşbəxtlik kimi qəbul edir. Avropada məhdudlaşdırıcı tədbirlər insanlara qayğı kimi təqdim edilir. Azərbaycan hakimiyyətinin eyni hərəkətləri hüquq və azadlıqların məhdudlaşdırılması adlandırılır. Koronavirus səbəbindən “beşinci kalon” öz havadarlarının maliyyə və siyasi dəstəyindən məhrum olublar. Buna görə də pandemiya onların sanki varlıqlarının sübutu üçün bir şansdır. Bəs normal müxalifət olan ölkələrdə vəziyyət necədir? Çox uzağa getmədən qardaş Türkiyəyə nəzər salaq. Türkiyənin ana müxalifət partiyası olan CHP, eləcə də İYİ partiyası koronavirusla mübarizədə hökumətə dəstək verdi. Türkiyə müxalifəti səhiyyə nazirinə, nazirliyin işçilərinə təşəkkür edərək bu dövrdə birlik nümayiş etdirməyin hər şeydən önəmli olduğunu bildirdilər. Qonşu Gürcüstanda isə 20-dən çox müxalifət partiyası dünyanın aparıcı ölkələri və beynəlxalq maliyyə qurumlarına müraciət ünvanladı. Müxalifət partiyaları Gürcüstan hökumətinin beynəlxalq maliyyə dəstəyinə çox ehtiyacı olduğunu bildirərək deyirlər: “Beynəlxalq yardım almaq bizim ümumi həyati maraqlarımıza daxildir və bu, həm bugünkü, həm də gələcəkdə formalaşdırılacaq hökumətə ciddi iqtisadi və sosial böhranın öhdəsindən gəlməyə imkan verəcək”.

### Cəmiyyət müxalifətin xəyanətini bağışlamayacaq

Depudatın sölərinə görə, dünya siyasətində belə misallar kifayət qədər çoxdur: “Əfsuslar olsun ki, “beşinci kalon” tərəfindən Azərbaycan üçün vacib olan tədbirlər əsnasında sərgilənən bu mövqe növbəti dəfə bilavasitə ölkə əhalisinin sağlamlığı ilə bağlı olan mövzuda göstərildi. Siyasi həyatın tullantıları arasında olan bu qüvvələr yəqin ki, gündəmdə qalmağın yollarını axtarır. Amma unutmaq olmaz ki, siyasi əxlaq var. Birlik göstərə bilmirsənsə susub qıraqda dayanmaq lazımdır. Sabah Qarabağı işğaldan azad edəndə mövzu nə olacaq görəsən?”

Bir sözlə, görünən odur ki, müxalifətin dağıdıcı qanadı və “beşinci kalon”un tör-töküntülərdən ibarət ünsürləri bu ağır və çətin dönəmdə Azərbaycanın milli və dövlətçilik maraqlarına qaşı geniş fəaliyyət qururlar. Baxmayaraq ki, istək və arzuları fiaskoya uğrayır. Bununla belə, çabalarını davam etdirirlər. Bu isə xəyanətdən və satqılıqdan başqa bir şey deyil. Çünki, kimin kim olduğu belə ağır vaxtda bilinir. Belə çətin məqamda erməni dəyirmanına su tökmək və milli maraqlara qarşı şər və böhtanlar səsləndirmək bağışlanmazdır. Söz yox ki, xalq bunu müxalifətə bağışlamayacaq. Koronovirus epidemiyasından çıxdıqdan sonra xalq müxalifətdən haqq-hesab tələb edəcək. Bu isə çox sərt haqq -hesab olacaq.

**İ.ƏLİYEV**



**Təhmasib Novruzov**

# Mədə niyyətlilər...

***Allah sənə min kərə, milyon kərə rəhmət eləsin ay böyük Mirzə Cəlil. Koronovirusla bağlı tətbiq edilən qarantin mane olmasaydı bu saat durub qaçardım məzarının başına ki, görüm gorun cadar-cadar olubmu? Heç ədəbiyyat muzeyimizdəki heykəlinin də yanına gedə bilmirəm ki, görüm heykəlin qan ağlayır, ya yox! Heç yerə gedə, heç bir abidəni yoxlaya bilməsəm də, fəhmim deyir ki, ruhun bu saat fəğan qoparır.***

Necə də qoparmasın? 100 il bundan əvvəl yana-yana yazıb qoyub getmisən millətin bəzi üzvlərinin eybəcərliklərini və güman eləmisən ki, zamanı gələcək, millət inkişaf edəcək və bu eybəcərliklər girdabından xilas olacaq. Bir əsr keçib, nəsillər dəyişib, amma millətin içində hələ də o eybəcərlikləri, sanki bir mental dəyər kimi qoruyub saxlayanlar var və heç onlardan xilas olmaq haqqında düşünmürlər də. Hələ o zamanlar qələmə aldığın elə eybəcərliklər var ki, indi onlar bir az da şişib, dözülməzlik həddini da aşıb. Yazımda belə dözülməz eybəcərliklərdən birini yazmaq istəyirəm. Yazmaq istəyirəm ona görə ki, vaxt tapıb sənin yazdıqlarını oxuya bilməyənlər bəlkə internetdə-zadda boş vaxtında oxuya bildi. Oxuya bilsələr və bir-ikisi nəticə çıxarsa, o dünyada yanına gələndə bir az başımı qaldırıb o nurlu üzünə, qəm dolu gözlərinə baxa bildim bəlkə. Tariximiz deyir ki,bizim ulularımız dünyaya mədəniyyət yayan kişilər olublar. Əkinçilik mədəniyyətindən tutmuş at minmək, hamam tikmək mədəniyyətinə qədər çox mədəniyyəti dünyaya, məhz bizim babalarımız yayıb. İndi mədəniyyətin yeni formasını da kəşf eliyib bizimkilər. Burda da həmin səslərdi, həmin hərflərdi. Sadəcə indi həmin söz ikiyə bölünüb: mədə və niyyət! Mədə niyyətimiz o qədər aşıb-daşıb ki, millət niyyətini də, vətən və dövlət niyyətini də, bir sözlə bütün gərəkli niyyətləri əridib, yoxa çıxarıb. Deməyəsən ki, şişirdirəm. Vallah, billah şişirdib eləmirəm. Hələ içimdən keçənləri demək üçün bu qədər zəngin dilimizdə sözlər tapa bilmirəm ki, onları ifadə edə bilim. İndi mən bircə faktdan danışım, bax gör haqlıyam, ya yox? Dünya koronovirus deyilən (Sizin zamanınızda ispan xəstəliyi deyilən bir taunun nəvəsidi) bir bəla ilə savaşa qalxıb. Bəşəriyyət, insanlıq məhv olma təhlükəsi ilə üz-üzədir. Bütün dünya dövlətləri kimi, bizim dövlətimiz də digər vacib işləri bir yana buraxıb, diqqətini yönəldib bu bəladan xilas olmaq uğrunda savaşa. İnsafən, dövlətimiz çox ölkələrin etmədiyi və ya edə bimədiyi hər şey edilir ki, millətimiz bu savaşdan salamat çıxsın. Bəzi-bəzi tədbirlərə bəzi-bəzi özünü-sözünü bilməyənlər mızdan-vızdan qoyur ki, bunu normal qarşılayırıq. Hər bir normal toplumda beş-on anormal düşüncəyə malik olanlar olur və bunlar da bizim anormallarımızdır. Amma televiziyadan (Təzə modeldi, sizin zamanınızda yox idi. Danışan və göstərən sandıqdı...) bir məlumatı eşidəndə yerimdə necə dondumsa, nə qədər spirt töksələr də, sabunla yuyub təmizləsələr də, saatlarla donum açılmadı. Deyim, sən də eşit. Dövlət başçısı müxtəlif təbəqəli vətəndaşların güzəranını bu taun dövründə yaxşılaşdırmaq üçün atdığı addımların sonunda heç yerdə işləməyən (?), heç bir gəliri olmayan vətəndaşlarını da yaddan çıxarmadı. Belə adamların hərəsinə müəyyən məbləğdə, yəni indiki çətin dövrü başa çıxmalarını təmin edəcək qədər yardım verməyi qərara aldı. Bizim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyimiz bir yığıncaq keçirdi və bildirdi ki, tək bir gün ərzində iki milyondan artıq adam(???) bu yardım üçün müraciət edib. Az səbr elə, ulu baba! Araşdırma nəticəsində məlum olub ki, müraciət edənlərin yarıdan çoxu ya hardasa işləyən, ya da ailə üzvləri yaxşı əmək haqqı alan, bir sözlə bu məbləğə ehtiyacı olmayan vətəndaşlardır. Fakt məni necə dəhşətə gətirdisə, eləmədim tənbəllik, donum açılan kimi həmin nazirlikdə işləyən bir tanışıma zəng vurdum. Bu dəfə nə eşitsəm yaxşıdı? Müraciət edənlərin çoxunun müxtəlif banklarda kifayət qədər məbləğdə (on min,iyirmi min...) əmanətləri var. A balam, bu dövlət vəsait ayırır ki, həqiqi ehtiyacı olan vətəndaşları ac qalmaqdan xilas eləsin, sənin vicdanın, qeyrəti hardadır ki, buna ehtiyacın olmadığı halda əl-qarp üçün fürsətdən istifadə eləmək istəyirsən? O adamların əksəriyyəti indi imkansızlara dəstək verməli olduğu halda, imkansızın malına göz dikirsə, bu mədə niyyətli olduğumuzun ən bariz nümunəsi deyil də, nədir? Yadıma Dağlıq Qarabağda hadisələrin əvvəlində baş verən bir olay düşdü. Ağdamda, Dağlıq Qrabağ əhalisinə dəstək məqsədilə hadisələr yenicə başladığı ərəfədə “Dayaq” adlı bir cəmiyyət yaratmışdıq. Rayonun imkanlı adamları hesabına bura vəsait də toplamışdıq ki, ehtiyacı olanlara həm də maddi dəstək verək. Yanımıza bir gənc gəldi, anasının ağır xəstə olduğunu, onu həkimə gətirməyə imkanı olmadığını dedi. Ərizəsini alıb, göndərdik bankdan götürsün. Cəmiyyətin digər üzvü Surxay adlı həmyerlimlə günorta nahara gedəndə, gördük ki, həmin oğlan restoranda bir nəfərlə yeyib-içir. Süfrədə də araq, digər bahalı içkilər. Ona görsənmədik, keçib bir tərəfdə oturub piti sifariş etdik. Süfrəsində kabablar olan bu “ehtiyaclı, anası xəstə “ oğlan eləmədi tənbəllik, bizi görmədən mənim sağlığımı dedi. Axırda da qeyd elədi ki, sağ olsun ermənilər” (?), bu oyunu başlamasaydılar, kimidi bizə pul verən ki, gəlib yeyib-içək! Bu misalı da elə-belə çəkmədim. Belə mədə niyyətimizə o boyda torpaqları qurban vermişik. İndi də mədə niyyətimizə ölkəni qurban vermək istəyirik. Məncə dediklərim kifayətdir. Deməli olduğum çox söz var. Amma arifə bir işarə bəs edirsə, arif olmayanların da başa düşmələri üçün bu qədər işarə qoydum ortaya. Düşünürəm ki, bunlar ən mədə niyyətli adamların da qanmasına kifayət edər. Etməyəcəksə,o zaman gorun başdan ayağa çatlayacaq və bir də görəcəyik ki, sən boyda bir dühanın heç goru da qalmayıb.

# AZƏRBAYCANDA HUMANİZM SİYASƏTİ VƏ İNSAN HÜQUQLARI

***Azərbaycan hər zaman öz ərazisində hər bir vətəndaşının konstitusion hüquq və azadlıqlarına, təhlükəsizliyinə təminat verməklə müxtəlif konfessiyalara və millətlərə məxsus insanların dinc yanaşı yaşamasını təmin etmiş və bu gün də təmin etməkdədir. Müasir dünyada getdikcə dərinləşən sivilizasiyalararası toqquşmalar və ziddiyyətlər fonunda insanların hüquq və azadlıqlarının, etnik-milli dözümlülüyün, habelə tolerantlıq və multikulturalizm kimi dəyərlərin bəşəriyyət üçün daha önəmli olduğunu göstərir.***

İnsan hüquqları ilə vəhdət təşkil edən multikulturalizm dəyərləri olmadan humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma dostluq və əməkdaşlıq mümkün deyil. Təsadüfi deyil ki, bu gün dünyada hərbi toqquşmaların, terrorizmin, dini ekstremizmin, islamafobiyanın, ksenofobiyanın tüğyan etdiyi bir dövrdə yüksək tolerantlığın və multikulturalizmin bir həyat tərzinə çevrildiyi Azərbaycan bütün dini və siyasi baxışlara sahib, müxtəlif mədəniyyətlərə mənsub xalqların vahid dialoq mərkəzinə çevrilib.

Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mərkəzində vətəndaş amili dayanır. İnsana qayğı, insan ləyaqətinə hörmət, layiqli həyat səviyyəsi, vətəndaş məmnunluğu ölkədə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməl prinsipləridir. Həyata keçirilən demokratik islahatlar çərçivəsində, həmçinin institusional mexanizmlərin, o cümlədən, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) institutunun təsis olunması da məhz insan hüquqlarının etibarlı müdafiəsinə xidmət etmişdir.

Eyni zamanda, vətəndaş cəmiyyətinin inkişafı, açıq hökumətin və ictimai iştirakçılığın geniş təşviqi, korrupsiyaya qarşı qəti mübarizə, müasir İKT-lə-rin, elektron və innovativ xidmətlərin tətbiqi sahəsində əldə olunan nailiyyətlər, habelə dövlət idarəetməsinin təkmilləşdirilməsi, ciddi struktur dəyişiklikləri, idarəçilikdə şəffaflığın artırılması bilavasitə insanlara layiqli xidmətlər göstərilməsinə, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulmasına hesablanmışdır. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə yaradılmış və Azərbaycan brendi olan "ASAN xidmət" bu gün korrupsiyaya qarşı mübarizə və dövlət orqanlarının transparentli-yinin təmin edilməsi sahəsində uğurlu islahat nümunəsidir. Təsadüfi deyil ki, ASAN sosial infrastrukturu beynəlxalq aləmdə nadir, innovasiyalı və korrupsiyadan uzaq sistem adlandırılaraq, digər dövlətlərə nümunə kimi tövsiyə edilir. Həmçinin, hər bir demokratik cəmiyyətdə insan hüquqlarının təmin olunmasında müstəqil məhkəmə hakimiyyətinin müstəsna rol oynadığı nəzərə alınaraq informasiya sisteminin tətbiqi məhkəmə fəaliyyətinin daha səmərəli təşkil olunmasına, ədalət mühakiməsinə çatımhhğm asanlaşdırılmasma, onun səmərəsinə və keyfiyyətinə əsaslı təsir göstərir, insanlara daha əlverişli və rahat şərait yaradır. Ədliyyə və məhkəmə-hüquq islahatları çərçivəsində cəmiyyətin həssas təbəqələrindən olan azadlıqdan məhrum edilmiş şəxslərin hüquqlarının etibarlı müdafiəsi istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Təsadüfi deyil ki, dövlətimizin humanizm siyasəti Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi möhkəm təməl əsasında uğurla inkişaf etdirilir, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən imzalanmış əfv sərəncamları, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə elan olunmuş amnistiya qərarları ilə on minlərlə şəxsin müxtəlif cəzalardan, o cümlədən azadlıqdan məhrum etmə cəzasından azad olunması insanların azadlıq hüququnun təmin olunmasına xidmət etmişdir. Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın çoxşaxəli və əzmkar fəaliyyəti ölkəmizin hərtərəfli tərəqqisinə, cəmiyyətin müxtəlif təbəqələrinin - qadınların, uşaqların, məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına, elmin, təhsilin və səhiyyənin inkişafına hesablanmış mühüm layihələrin müvəffəqiyyətlə icrasına, humanizm, tolerantlıq ideya və prinsiplərinin, bu sahədə dövlət siyasətinin həyata keçirilməsinə mühüm töhfələr verir. Cari ilin fevralında ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı imzaladığı mühüm Sərəncam bu sahədə islahatların daha intensiv davamına rəvac verməklə yeni yanaşmaların tətbiqinin əsasını qoymuşdur. Bu, həm də humanizm ideyalarına daim sadiq qalan dövlətimizin siyasi iradəsinin təzahürü olaraq cəza siyasətinə, cinayət qanunvericiliyinə baxışın yenilənməsi və bu sahədə dünyada mövcud olan mütərəqqi təcrübələrin tətbiqi məqsədini daşıyır. Dövlət başçısının Sərəncamı ilə yaradılmış ölkəmiz üçün yeni olan Probasiya xidməti məhz məhkumların cəmiyyətdən tam təcrid etmədən cəzasını çəkməsində mühüm institut olmaqla bu istiqamətdə hazırda mühüm tədbirlər görülür, o cümlədən bu sahədə beynəlxalq təcrübələr öyrənilir, həmçinin Avropa İttifaqı ilə birgə layihə çərçivəsində Probasiya xidmətinin fəaliyyətinin əsasları, qanunvericiliyin təkmilləşdirilməsi, təlim kurslarının və səfərlərinin, maarifləndirmə tədbirlərinin təşkili ilə bağlı pilot layihələr həyata keçirilir. Eyni zamanda, Avropa İttifaqı ilə mediasiya sahəsində də ayrıca layihənin təşviqinə dair razılığa gəlinmiş və bu il layihənin icrasına başlanılması nəzərdə tutulur.

Dövlət başçısının 2007-ci ildə imzaladığı Sərəncamla ilk Dövlət Proqramının qəbul olunduğu günün - 18 iyun tarixinin ölkəmizdə İnsan Hüquqları Gününün elan olunması dövlətimizin insan hüquqlarına həssas münasibətinin bariz təzahürüdür. Bu il həmin tarixin təsis olunmasının 13 ili tamam olur. Bu münasibətlə respublikamızın müxtəlif yerlərində, ictimaiyyətin, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə dövlət və hüquq-mühafizə orqanları tərəfindən əhalinin müxtəlif təbəqələrini əhatə etməklə insan hüquq və azadlıqlarının təmin olunmasını, hüquq bərabərliyi üzərində qurulmuş multikultural dəyərləri təbliğ edən silsilə tədbirlərin keçirilməsi ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasına hər zaman yüksək diqqət və qayğı ilə yanaşılmasını əyani təsdiq edir.

Bu gün müstəqil Azərbaycanın uğurlarının təməlində ulu öndərimiz Heydər Əliyevin müdrik siyasi kursu, strateji proqramlar, konsepsiyalar və islahatlar dayanır. Alternativi olmayan bu siyasi kurs Azərbaycanın çox qısa bir zaman kəsiyində inkişaf yoluna çıxmasına səbəb olub. Dahi rəhbərimizin ideyaları Azərbaycanın və regionumuzun lideri Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycanın sürətli inkişafında, dünyada nüfuzunun durmadan artmasında Heydər Əliyev Fondunun da önəmli rolu var. Ölkəmizin ictimai-siyasi həyatında Birinci-vitse prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti olduqca mühüm və əhəmiyyətlidir. Ölkəmizin birinci xanımı Mehriban Əliyevanın ali dəyərlərə söykənən, dövlətinin maraqlarını əks etdirən fəaliyyətindən bəhs edərkən, ilk növbədə, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ölkəmizin inkişafına verdiyi töhfələrə, sərgilədiyi çoxşaxəli fəaliyyətə diqqət yetirmək gərəkdir. Məlum olduğu kimi, 2004-cü il may ayının 10-da fəaliyyətə başlayan Heydər Əliyev Fondu yaradılarkən ümummilli lider Heydər Əliyevin zəngin irsini öyrənməyi, təbliğ etməyi, onun Azərbaycanın sosial-iqtisadi və mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmağı, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməyi, həmçinin Azərbaycanın mədəniyyətinin və tarixinin dünyada daha geniş tanıdılması ilə bağlı aparılan işlərə köməklik göstərməyi qarşısına məqsəd qoyub. O, Ulu Öndərin adını daşıyan fondun yaradılmasından əvvəl də böyük milli təəssübkeşliklə fəaliyyət göstərirdi. Mehriban xanım Əliyevanın təəssübkeşliyi, Vətənə, xalqa bağlılığı, daim qurub-yaratmaq həvəsi ilə yaşadığı, gördüyü işdən mənəvi zövq aldığı rəhbərlik etdiyi Heydər Əliyev Fondunun reallaşdırdığı layihələrdə daha konkret şəkildə əks olunur. 2017-ci il fevralın 21-i xalqımız və dövlətimiz üçün xüsusi əhəmiyyət kəsb edən, siyasi idarəçilik tariximizdə tamamilə yeni olan bir faktla yaddaşlara yazılacaq. Həmin gün biz dövlət müstəqilliyimizin bərpasından keçən illər ərzində ölkəmizdə mövcud olmuş idarəetmə strukturunda qabaqcıl Avropa ölkələrinin təcrübəsinə əsaslanan bir yeniliyin reallaşdırılmasının şahidi olduq. Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edildi. Birinci vitse-prezident ölkənin ikinci şəxsi kimi yüksək təşkilatçılıq və idarəçilik keyfiyyətlərinə malik olmalıdır. Mehriban xanım indiyədək məsul olduğu bütün işlərdə peşəkarlıq, bacarıq nümayiş etdirib və onların hamısını uğurla yekunlaşdırıb. Əsas məqam odur ki, bu uğurlu nəticələri yalnız Azərbaycan ictimaiyyəti deyil, bütün dünya görüb. Azərbaycanın Birinci vitse-prezidentinin təyin edilməsi dövlətçilik tariximizdə yenilikdir, bir ilkdir. Buna qədər ölkəmizdə faktiki olaraq belə bir idarəetmə institutu olmayıb. İkincisi, bununla Azərbaycanın idarəçilik sistemində tamamilə yeni bir mərhələnin əsası qoyuldu. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar kursu bununla yeni bir mərhələyə qədəm qoydu. Bu vəzifəyə məhz Mehriban xanım Əliyevanın təyin olunmasının özü isə ayrılıqda tarixi bir hadisədir. Bu ali vəzifəyə layiq olduğunu və gələcəkdə də bu məsuliyyətli vəzifəni yüksək bacarıqla icra edə biləcəyin bu günə qədər gördüyü işlərlə sübuta yetirib. "Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyev də tam haqlı olaraq Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezidenti təqdim edərkən Mehriban xanım Əliyevanı çox peşəkar, bilikli, təcrübəli, prinsipial və xeyirxah bir insan kimi xarakterizə etdi. Mehriban xanım Əliyeva həm ölkəmizin Birinci xanımı, həm Heydər Əliyev Fondunun prezidenti və digər qurumların rəhbəri kimi uğurlu fəaliyyəti ilə xalqımızın böyük təqdirini və etimadını qazanıb. Mehriban xanım Əliyeva daim insanlarla ünsiyyətdə olub, onları düşündürən, narahat edən məsələlərin həlli ilə bağlı müxtəlif tədbirlərin görülməsi təşəbbüsü ilə çıxış edib. O, xalqımızın və dövlətimizin maraqlarının beynəlxalq miqyasda qorunması, mədəniyyətimizin, tarixi dəyərlərimizin təbliği istiqamətində mühüm işlər görüb. Həmçinin, onun rəhbərliyi ilə bir çox beynəlxalq tədbirlərin uğurla həyata keçirilməsi, "Evrovision" və İlk Avropa Oyunlarının paytaxtımızda ən yüksək standartlara uyğun baş tutması və Azərbaycanın dünyadakı nüfuzunun artmasına önəmli töhfələr verməsi bir daha Mehriban xanımın təşkilatçılıq bacarığının təsdiqi idi. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunan Amnistiya aktları minlərlə insana, yüzlərlə ailəyə sevinc bəxş edib. O, ölkəmizdə səhiyyə, təhsil sahələrində mühüm layihələrin təşəbbüskarı kimi də uğurlu fəaliyyətini davam etdirib. Bütün bunlar isə bir daha Prezidentimiz İlham Əliyevin nə qədər düzgün bir qərar verdiyini sübuta yetirir. Prezident İlham Əliyev demişdir: "Mehribanın beynəlxalq aləmdə böyük nüfuzu var.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

9 aprel

Son səhifə

## İkiqat “Grammy” mükafatçısı koronavirusdan öldü



Amerikalı müğənni Con Prayn koronavirusdan dünyasını dəyişib. Bu barədə “Reuters” xəbər yayıb. Martın 17-də 73 yaşlı Prayn və xanımı Fionanın koronavirusa yoluxduqları məlum olub. Martın 26-da PraynNeşvill şəhərində xəstəxanaya yerləşdirilib. Müğənni infeksiya nəticəsində yaranan ağırlaşmalara görə ölüb. Con Prayn öz mahnılarının müəllifi və ifaçısı olub. O, eyni zamandabir çox sənətkarlar üçün bəstələr yazıb. Prayn kantri və folk (xalq musiqisi) janrlarının klassiklərindən sayılır. Con Prayn “Ən yaxşı müasir folk-albomu” kateqoriyasında ikiqat “Grammy” mükafatçısıdır.





## Şok sözlər: “Messi getsə, dünyanın sonu olmayacaq”

*Qol.az xəbər verir ki, bu sözləri İspaniya La Liqasının prezidenti Xavyer Tebas “Barselona”nın kapitanı Lionel Messinin “İnter”ə keçəcəyi barədə iddialara münasibət bildirərkən deyib.*

O, argentinalı hücumçunun La Liqada qalmasını istədiyini, ancaq getsə də, çox şey dəyişməyəcəyini bildirib: “Bu iqtisadi problemlər Messi ilə qətiyyən düzəlməyəcək. Messinin İspaniyada qalmasını çox istərdim. Ancaq getsə belə, dünyanın sonu olmayacaq. Kriştiano Ronaldosuz La Liqanın pullar itirəcəyini mən də demişdim. Amma hər şey tərsinə oldu, əksinə, La Liqa daha çox qazanmağa başladı. Hətta Portuqaliyadakı teleyayım gəlirlərimiz də artdı. Böyük futbolçular bu mənada kömək edirlər, ancaq bir çempionat üçün həlledici olduqlarını demək olmaz”.

Qeyd edək ki, “İnter”in sabiq prezidenti Massimo Moratti yerli mətbuata açıqlamasında “İnter”in Messini transfer etməyə çalışdığını bildirib.

## “Barselona” Koutinyoya 90 milyon qiymət qoydu



*“Barselona” futbolçusu Koutinyonun satış qiymətini müəyyənləşdirib. Qol.az “Sport.es”ə istinadən xəbər verir ki, Kataloniya klubu hazırda “Bavariya”da icarədə olan braziliyalı yarımmüdafiəçini 90 milyon avroya satmağa hazırdır. Klubun gözlənilən maliyyə böhranına görə qiyməti azaltmaq niyyətində olmadığı da bildirillib.*

İngiltərə Premyer Liqa təmsilçilərindən bir neçəsi Koutinyonu icarəyə götürmək istəyir. “Barselona” isə yalnız sonradan futbolçunu birdəfəlik transfer etmək şərti ilə onu göndərməyə hazır olduqlarını bildirib. Qeyd edək ki, Koutinyo ilə “Çelsi”, “Mançester Yunayted”, “Lester”, “Arsenal” və “Tottenhem”in maraqlandığı iddia olunur.

## Bakıda “Köhnə hamam”dan 41 yaşlı kişinin meyiti tapıldı



Bakının Suraxanı rayonu, Əmircan qəsəbəsində yerləşən “Köhnə hamam” deyilən tikilinin içərisində kişi meyiti aşkarlanıb. Trend-in məlumatına görə, araşdırmalar zamanı meyitin Xətai rayon sakini, 1979-cu il təvəllüdlü Mixail Kanonova məxsus olduğu müəyyən edilib. Hadisə yerinə baxış keçirilərkən meyitin yaxınlığında şpris aşkar olunub. Faktla bağlı Suraxanı Rayon Prokurorluğunda araşdırmalara başlanılıb, müvafiq ekspertizalar təyin edilib.



## DIETOLOQDAN XƏBƏRDARLIQ: Bu yeməkləri mikrodalğalı sobada isitməyin!

*Bəzi qidaları mikrodalğalı sobadaisitmək olmaz. Bunu həkim-dietoloq Yelena Solomatina “Veçernyaya Moskva” qəzetinə müsahibəsində deyib.*

Bəzi qidalar isidilən zaman xeyirli təsirini itirir və bəzən zərərli maddə xüsusiyyəti qazanırlar. Məsələn,mikrodalğalı sobadaC vitamini, sadəcə, zərərsiz komponentlərinə parçalanır, amma rafinə edilməmiş (təmizlənməmiş) yağlar oksidləşir və kanserogenə (xərçəng şişlərini yaradan maddələrə) çevrilir.

Soyuducudan çıxardığınız tərəvəz salatını da isitmək lazım deyil. Bitkilərin tərkibindəki nitratlar qızdırıldıqda zəhərli maddə sayılannitrosaminə çevrilirlər.

Eyni zamanda, pəhriz üçün sodalı suyu isitməklə boğazınızı qorumağa çalışmayın. Onların tərkibində şəkər əvəzləyicisi yüksək hərarətdə isindiyi zaman siçan zəhəri ilə müqayisə edilə bilənzərərli maddəyə çevrilir.

## Britaniya gözəli tacını çıxarıb həkim xalatı geyinəcək



2019-cu ildə Böyük Britaniya gözəli seçilən Başa Mukherje koronavirusla mübarizə üçün əsl ixtisası olan həkimliyə qayıdacaq. Sondakika.com xəbər verir ki, Mukherje pandemiya dövründə ehtiyac olan istənilən qrupla işləyə biləcəyini deyib. Koronavirus epidemiyası başlayanda xeyriyyə missiyası ilə Hindistanda olan Mukherje baş verənləri müşahidə edəndən sonra peşəsi ilə məşğul olmaq istədiyini bildirib.

Aprelin 6-da Böyük Britaniyaya qayıdan model iki həftə karantindən sonra həkim kimi çalışmağa başlayacaq.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600